

Azərbaycanda test üsulu ilə ali məktəblərə qəbul artıq on ildir ki, aparılır və hər il biz bunun müsbət nəticəsini görürük. Müsbət nəticəsi olduğu üçün də biz bu üsulu dəstəkləyirik və onun Azərbaycanda davam etməsi üçün lazımi imkanlar yaratmışıq və yaradacağıq.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti

# ƏNƏNƏLƏR DAVAM EDİR



Azərbaycan Respublikasının Prezidentinin hər il ali məktəblərə daxil olan gənclərlə görüşünün keçirilməsi tələbə qəbulu kampaniyasının dəyərli ənənələrindən biridir. Bu il də yeni dərs ilinin başlanğıcı ərəfəsində ölkə başçısı ali məktəblərə ən yüksək balla qəbul olmuş tələbələrin bir qrupunu Prezident sarayına dəvət etmişdi.

Dövlətimizin rəhbəri görüşü qısa giriş nitqi ilə açdı, sonra sözü Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadəyə verdi. Məleykə Abbaszadə builki tələbə qəbulunun nəticələri haqqında məlumatla çıxış etdi. Sonra Prezidentin İcra Aparatının Humanitar Siyasət Şöbəsinin müdiri Fatma Abdullazadə 2002/2003-cü tədris ili üçün respublikanın ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını oxudu.

Prezident Heydər Əliyev ən çox bal toplamış ali məktəb tələbələrini qəbul imtahanlarında əldə etdikləri yüksək nəticələrə görə səmimi təbrik etdi, onlara ən xoş arzularını bildirdi. Tələbələrə "Azərbaycan yeni minillikdə. Dovlət Kitabı" və gül dəstələri təqdim olundu.

Prezident Heydər Əliyev görüsdə böyük nitq soylədi. Dovlət başçısı görüşün sonunda tələbələrlə xatirə şəkli çəkdirdi.

Sizi görüşdən bəhs edən materiallarla, habelə qəbul kampaniyasının ən yaxşı abituriyentlərinə həsr olunmuş digər maraqlı yazılarla tanış edirik.

Azərbaycan Respublikasının Prezidenti **Heydər ƏLİYEV** görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli xanımlar və cənablar!

Əziz tələbələr!

Ölkəmizdə ali məktəblərə, universitetlərə qəbul prosesi başa çatdı. İlkin məlumatlara görə, test üsulu ilə aparılan qəbul qaydaları bu il də özünün müsbət nəticələrini göstəribdir.

Mən bu gün sizi buraya dəvət etmişəm. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının qısa məlumatını dinləmək istəyirəm. Bizə verilən məlumatlara görə, imtahanlarda çox yüksək bal toplamış, yaxşı nəticələr əldə etmiş orta məktəb məzunları var. Onlardan ən yüksək nəticələr əldə edənləri mən bu görüşə dəvət etmişəm.

Sonra Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadəyə söz verildi.

# Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri MƏLEYKƏ ABBASZADƏNİN çıxışı



Möhtərəm cənab prezident! İcazə verin, bizi bugünkü görüşə dəvət etdiyiniz üçün iştirakçılar adından, ümumiyyətlə təhsil işçiləri adından, bu il tələbə adını qazanmış bütün gənclər adından Sizə, təhsilimizin ən birinci qayğıkeşinə dərin minnətdarlığımızı bildirim.

Ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıq, iqtisadi inkişaf, eləcə də test imtahanlarında obyektivliyin təmin edilməsi gənclərimizin elmə, təhsilə marağının gündən-günə artmasına səbəb olmuşdur.

Xüsusi vurğulamaq istəyirəm ki, ötən il ən yüksək bal toplamış 25 tələbə üçün Prezident təqaüdü təsis edilməsi haqqında Sizin fərmanınız respublikamızın pedaqoji ictimaiyyəti tərəfindən böyük sevinclə qarşılanmışdır. Ən başlıcası isə, ali məktəblərə qəbul imtahanlarına hazırlaşan gənclərin arasında böyük ruh yüksəkliyi və sağlam yarış əhvali-ruhiyyəsi yaratmışdır.

Bu il Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən 25 dövlət ali təhsil ocağına və 12 özəl ali məktəbə, habelə ölkəmizin ali hərbi məktəblərinə qəbul imtahanları keçirilmişdir.

2002\2003-cü tədris ili üçün respublikamızın mülki ali məktəblərinə, ümumilikdə 27.577 vakant yer təqdim olunmuşdu. Bunların 24.458-i dövlət ali məktəbləri, 3.119-u isə özəl ali məktəblər üçün idi. Dövlət ali məktəbləri üçün ayrılmış yerlərin 46 faizi ödənişsiz, 54 faizi isə ödənişli təhsil formasında nəzərdə tutulmuşdu.

Bu il ali məktəblərə qəbul olunmaq üçün 51.069 nəfər sənəd təqdim etmişdi. Bundan 43.565-i Azərbaycan bölməsinə, 7.056-sı isə rus bölməsi üzrə təqdim olunmuşdu. Qəbul imtahanları nəticəsində 18.342 gənc tələbə adına layiq görülmüşdür. Onların 14.791-i Azərbaycan bölməsinə, 3.551-i isə rus bölməsinə qəbul olunmuşdur.

İmtahanlarda iştirak edən abituriyentlərin yalnız 42 faizi bu ilin məzunları idi. Ümumiyyətlə, ötən illərlə müqayisədə bu il məzunların sayı iki dəfə azaldığından, - ötən il ölkəmizdə məzunların sayı 100 min nəfər idi, bu il isə 50 mindir, - abituriyentlərin tərkibində onların sayı cəmi 42 faiz olmuşdur. Bizdə imtahanlarda məktəbi yeni bitirən məzunların sayı hər il təxminən 70-80 faiz olur.

Bu il imtahanlarda iştirak etmiş abituriyentlərin yaş hədləri də çox mürəkkəb formada idi. 16-18 yaş arasında 21.457 nəfər, 18-20 yaş arasında 16.042 nəfər və 20 yaşdan yuxarı 13.122 nəfər sənəd təqdim etmişdi.

İlkin təhlil göstərir ki, builki abituriyentlərin orta statistik nəticələri keçən illə müqayisədə bir qədər zəifdir. Bu fərq Azərbaycan və rus bölmələrində müxtəlifdir. Rus bölməsi abituriyentlərinin nəticələri ötən illə müqayisədə dəyişməyibdir. Azərbaycan bölməsində isə abituriyentlərin bilik səviyyəsi bu il bir qədər aşağı düşmüşdür. Bu isə onunla bağlıdır ki, Azərbaycan bölməsində yaşlı abituriyentlər çox idi və imtahanlarda, əsasən, kənd məktəblərinin məzunları iştirak edirdi.

Onu da qeyd etmək lazımdır ki, bu il ali məktəblərə qəbul olunanlar arasında yüksək – 300-dən yuxarı bal toplamış abituriyentlərin sayı 42 faizdir.

Ümumiyyətlə, bu il imtahan vermiş abituriyentlərin nəticələrini nəzərinizə çatdırmaq istərdim. 500-700 arasında bal toplayan abituriyentlər

2,4 faiz, 300-500 arasında bal toplayan abituriyentlər 14 faiz, 0-100 arasında bal toplayanlar isə – bu, mənfi nəticədir – 40,9 faiz olmuşdur.

Gördüyünüz kimi, bu rəqəmlər aşağı olduğuna görə, bu il təqdim edilən vakant yerlərin 9.235-i boş qalmışdır. Təkrar edirəm ki, bu ilin nəticələri səciyyəvi deyil və son illərin tələbə qəbulu göstəricilərindən həm kəmiyyət, həm də keyfiyyət göstəricisinə görə fərqlənir.



Ümumiyyətlə, biz ölkəmizdə təhsilin mövcud vəziyyətini abituriyentlərin nəticələri ilə yox, həmin ilin məzunlarının nəticələri ilə qiymətləndiririk.

Bu il imtahanlarda iştirak edən məzunların sayı 21.457 nəfər idi. Onların 8.260-ı, yəni 38 faizi qəbul olunmuşdur.

Bu ilin yeniliklərindən biri də ondan ibarət olmuşdur ki, attestatda olan qiymətləri biz ərizə formasında yığmışdıq və indi müqayisə edə bilərik ki, məktəbdə əla nəticə göstərən abituriyentlər sonra imtahanlarda neçə bal toplayıblar. Məzunların bizə təqdim edilən sənədlərində orta attestat balı 3-4 arasında olan abituriyentlərin sayı 34 faiz, 4-5 arasında olanların sayı 52 faizdir. Məzunların yalnız 10 faizinin orta attestat balı 5 olmuşdur.

Attestat qiymətləri 5 olan abituriyentlərin yalnız 12 faizi 500-700 bal arasında nəticə, 36 faizi isə mənfi nəticə göstərmişdir.

Buna baxmayaraq, bu il də 600-dən yuxarı bal toplayan abituriyentlərin sayı kifayət qədərdir. Onlar Azərbaycanın ən azı 50 bölgəsindən 120 məktəbi təmsil edirlər. Bu il 165 nəfər 600 baldan yuxarı nəticə göstəribdir.

Ümumiyyətlə, biz imtahan ərəfəsində respublikamızın ayrı-ayrı bölgələrində sınaq imtahanları aparırıq, “Abituriyent” jurnalında mütəmadi qaydada metodiki vəsaitlər dərc edirik, test bankını çap edib abituriyentlərə təhvil vermişik. İNTERNET vasitəsilə məlumatları əhaliyə operativ çatdırırıq və İNTERNET-də sınaq imtahanları da aparırıq. Bütün bu tədbirlər gənclərin imtahanlara hazırlaşması üçün kifayət qədər imkanlar yaradır.

Bu il 11-ci dəfədir ki, Azərbaycanda ali məktəblərə test üsulu ilə qəbul imtahanları keçirilmişdir. On il ərzində topladığımız təcrübə və əldə etdiyimiz nailiyyətlər bizə imkan verir ki, orta məktəblərin buraxılış siniflərində imtahanlarda, eyni zamanda, həmin məktəblərin pedaqoji kadrlarının attestasiyasında da bu sistemi tətbiq edək. Bununla əlaqədar Təhsil Nazirliyinin bizə müraciəti var. Ümidvarıq ki, sentyabr ayından bu iki layihəni birgə yerinə yetirə biləcəyik. Burada müəyyən təşkilati məsələlər var. Onların həllində yəqin ki, çətinlik olacaqdır. Amma bizə elə gəlir ki, gələn il bu tədbirləri həyata keçirsək, nəticədə biliyin qiymətləndirilməsinin şəffaflığı, təhsilin keyfiyyətinin yüksəldilməsinə çox böyük xidmət edə bilər.

Bu il Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının yaradılmasının 10-cu ildönümüdür. Xatırlatmaq istəyirəm ki, on il bundan əvvəl qardaş Türkiyənin köməyi ilə keçmiş SSRİ-nin bütün türkdilli ölkələrində belə təşkilatlar yaranmışdır. **Amma digər türkdilli respublikalardan fərqli olaraq, yalnız Azərbaycanda bu qurum vətəndaşlıq hüququnu qazandı, möhkəmləndi, müasirləşdi, təkmilləşdi və hazırda açıq sosio-texniki sistem kimi fəaliyyət göstərir.**

**Möhtərəm cənab prezident, biz tam əminik ki, yeni sistemin formalaşması və fəaliyyət göstərməsi, yalnız və yalnız Sizin siyasi iradənizin və bu sistemə göstərdiyiniz dəstəyin sayəsində mümkün olmuşdur.**

Bildirmək istəyirəm ki, Dünya Bankının ekspertləri tərəfindən 2002-ci ildə hazırlanmış və yayılmış “Keçid iqtisadiyyatı olan ölkələrdə təhsil sistemində gizli problemlər” adlı məruzədə Avropa və Mərkəzi Asiya dövlətlərinin fəaliyyəti üçün zəruri

olan 8 strateji istiqamət qeyd edilmişdir. Bunlardan ikisi - "Təhsildə məlumatların toplanması, monitorinqi və təhlili" və "Ali məktəblərə obyektiv qəbul aparılması" Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən həyata keçirilir. **Bizim bu sahədə topladığımız təcrübə beynəlxalq ekspertlər tərəfindən həmin ölkələrə tövsiyə olunmuşdur.**



Bütün qeyd olunanların nəticəsi kimi, Təhsilin Qiymətləndirilməsi üzrə **Beynəlxalq Assosiasiya, keçmiş Sovet İttifaqı respublikaları arasından yalnız iki ölkənin -Azərbaycanın və Litvanın təşkilatlarını öz sıralarına qəbul etmişdir.**

Assosiasiyanın bu il sentyabrın 2-də Honkonq şəhərində "Dəyişən tələblərə uyğun olaraq təhsilin qiymətləndirilməsinin islahatı" mövzusunda keçirəcəyi konfransa Azərbaycan tərəfindən iki məruzə təqdim edilmişdir. Hər iki məruzə konfransın təşkilat komitəsi tərəfindən qəbul edilmiş, onlardan biri konfransın əsas məruzəsi kimi təsdiq olunmuşdur.

Cənab prezident, 2000-ci ildə "Seçkilər" İnformasiya Mərkəzinin açılışı zamanı siz informasiya-kommunikasiya texnologiyalarının yalnız tələbə qəbulu prosesinə deyil, cəmiyyətin bütün sosial və iqtisadi sahələrinə də tətbiq olunması haqqında bizə göstəriş vermişdiniz. Azərbaycan hökuməti və BMT-nin İnkişaf Proqramı tərəfindən birgə həyata keçirilən "Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyalarının inkişafı strategiyasının hazırlanması və ilkin mərhələdə tətbiq edilməsi layihəsi"nin icraçı təşkilatı və əlaqələndiricisi qurumu kimi Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təyin olunması barədə 2002-ci ilin yanvar ayında imzaladığınız fərmanla bizə göstərdiyiniz etimada görə, icazə verin, Sizə öz dərin minnətdarlığımızı bildirək. Üzərimizə düşən məsuliyyəti dərk edərək bildirmək istəyirik ki, bu etimadı doğrultmaq üçün əlimizdən gələni edəcəyik.

İndi həmin strategiyanın ilkin layihəsi hazırlanaraq müvafiq təşkilatlara təqdim olunub və İNTERNET vasitəsilə ümumxalq müzakirəsinə çıxarılıbdır. Layihə çərçivəsində bir neçə əsas işçi qrupu fəaliyyət göstərir. Bunlar hüquqi normativ bazanın hazırlanması, Azərbaycan dilinin və əlifbasının İNTERNET məkanında istifadəsi, İNTERNET-in inkişafı məsələləri ilə məşğul olan qruplardır. Biz bu sahədə indiyədək mövcud olan problemlərdən biri - domen az probleminin həllinə dair memorandum imzalamışıq. Bu problem, demək olar ki, həll olunubdur.

Bu layihə çərçivəsində BMT-nin Beynəlxalq Ticarət Mərkəzi ilə fəal işgüzar əlaqələr yaradılmışdır. Bunun nəticəsi olaraq, bu il Bakıda bu təşkilatın, eləcə də bir sıra başqa qurumların iştirakı ilə böyük forumun keçirilməsi planlaşdırılmışdır.

Bu forumda informasiya-kommunikasiya texnologiyaları ilə əlaqədar Azərbaycan üzrə məruzə təqdim olunaraq müzakirə ediləcəkdir.

Ümumiyyətlə, bu sahədə BMT-nin Beynəlxalq Ticarət Mərkəzində ölkənin profaylının hazırlanması üçün birgə iş aparılır. Bir sıra ölkələrin səfirlikləri ilə, o cümlədən Yaponiya, İtaliya, Hindistan, İsrail və beynəlxalq donor təşkilatları ilə aparılan danışıqlar nəticəsində müəyyən layihələr üzrə işlər aparılır.

Cənab prezident, informasiya-kommunikasiya texnologiyaları və qloballaşdırma arasında olan əlaqə həmin texnologiyaların ölkə siyasətinə göstərdiyi təsiri həlledici edir. Biz ümid edirik ki, strategiyanın son variantı Sizə təqdim olunduqdan sonra, bu sahədə ümummilli fəaliyyət proqramı qəbul olunacaq və bu proqram BMT-nin millenium sammitində ifadə edilmiş inkişaf məqsədlərinə təkan verən amilə çevriləcəkdir.

İcazə verin bu sahənin mütəxəssisləri kimi bizə göstərdiyiniz etimada görə bir daha Sizə öz minnətdarlığımızı bildirim.

Çıxışımın sonunda bu il tələbə adını qazanmış bütün gəncləri təbrik edirəm, onlara gələcəkdə nai-

liyyətlər arzulayıram. Çox istərdim ki, seçdiyiniz ixtisaslar üzrə yaxşı mütəxəssis olasınız və Azərbaycanımızın inkişafına, qüdrətlənməsinə siz də öz töhfənizi verəsiniz.

Diqqətinizə görə çox sağ olun.

**Heydər ƏLİYEV:** Bu imtahanların nəticəsinə görə mənə ən yüksək bal toplamış tələbələrdən bir qrupu təqdim olunubdur. Onlar sizsiniz. Siz yüksək bal toplayanlar içərisində başqa səbəblərə görə də fərqləndiyiniz üçün mən sizə Prezident təqaüdü təyin etmişəm. Bu barədə mənim imzaladığım sərəncamı elan etmək üçün sözü Fatma Abdullazadəyə verirəm.

Prezidentin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri **Fatma ABDULLAZADƏ** “2002/2003-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamını oxudu.

## 2002/2003-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI



Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” 3 sentyabr 2001-ci il tarixli Fərmanına uyğun olaraq qəqara alıram:

1. 2002/2003-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

**Abışev Orxan İlham oğlu**
**Dəmirçiyeva Aytəkin Əlimərdan qızı**
**Əhmədov Vüsal Nüslət oğlu**
**Əliyev Seymur Sahib oğlu**
**Əliyev Vüsal Eldar oğlu**
**Əzizova Jalə Akif qızı**
**Fərəcov Ruslan Vaqif oğlu**
**Həbibov Afiq Əliyar oğlu**
**Hümmətov Yaşar Nizami oğlu**
**İsmayılov Ruslan Zahid oğlu**
**Qəhrəmanov Teyrun Təvəkkül oğlu**
**Quliyev Orxan Altun oğlu**
**Quluzadə Emil Zahid oğlu**
**Mansurov Həsən İsa oğlu**
**Mehdiyev Murad Fikrət oğlu**
**Mirzəyev Cavidan Ramiz oğlu**
**Naxçıvanski Cəmşid Yusif oğlu**
**Novruzov Bəhram Yusif oğlu**
**Nuriyeva İlahə Əfsər qızı**
**Paşayev Sənay Oqtay oğlu**
**Rüstəmbəyova Günay Rüstəm qızı**
**Surxayov Rəşid Zahid oğlu**
**Şahverdiyeva Günel Məhəbbət qızı**
**Şərəfxanov Xəyal Səfərəli oğlu**
**Şirinov Şamil Vidadi oğlu**

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
*Baki şəhəri, 3 sentyabr 2001-ci il.*

# Prezident təqaüdünə layiq görülmüş tələbələrə "Azərbaycan yeni minillikdə. Dövlət Kitabı" və gül dəstələri təqdim olundu

**I ixtisas qrupu** üzrə 5 təqaüdə
aşağıdakı tələbələr layıq görülmüşlər:



**HƏBİBOV Afiq Əliyar oğlu**

671.250 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olunmuşdur. Sumqayıt Özəl Türk Liseynin məzunudur.



**NURİYEVA İlahə Əfsər qızı**

671.000 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olunmuşdur. Biləsuvar rayonu, 2 saylı orta məktəbin məzunudur.



**ƏLİYEV Seymur Sahib oğlu**

654.375 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olunmuşdur. Naxçıvan Türk Liseyinin (şəhər oğlanlar kolleci) məzunudur.



**QƏHRƏMANOV Teyrun Təvəkkül oğlu**

646.375 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olunmuşdur. Gəncə şəhəri Nizami rayonu 11 saylı orta məktəbin məzunudur.



**Naxçıvanski Cəmşid Yusif oğlu**

646.250 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olunmuşdur. Oğuz rayonu 2 saylı orta məktəbin məzunudur.

**II ixtisas qrupu** üzrə 5 təqaüd aşağıdakı tələbələrə verilmişdir:



**QULUZADƏ Emil Zahid oğlu**

693.750 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olunmuşdur. Bakı Anadolu Türk Liseynin məzunudur.



**İSMAYILOV Ruslan Zahid oğlu**

687.875 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olunmuşdur. Bakı şəhəri Xətai rayonu 24 saylı orta məktəbin məzunudur.



**QULİYEV Orxan Altun oğlu**

678.750 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olunmuşdur. Bakı Özəl Türk Liseynin məzunudur.



**ŞİRİNOV Şamil Vidadi oğlu**

675.625 balla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olunmuşdur. Respublika olimpiya ehtiyatları internat liseyinin məzunudur.



**ƏLİYEV Vüsal Eldar oğlu**

673.125 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olunmuşdur. Salyan rayonu 8 saylı orta məktəbin məzunudur.

**III ixtisas qrupu** üzrə 5 təqaüd aşağıdakı tələbələrə verilmişdir:



**MANSUROV Həsən İsa oğlu**

661.250 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olunmuşdur. Bakı Türk Liseynin məzunudur.



**DƏMİRÇİYEVA Aytəkin Əlimərdan qızı**

649.375 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olunmuşdur. Bakı şəhəri Səbayel rayonu 160 saylı orta məktəbin məzunudur.



**ƏZİZOVA Jalə Akif qızı**

645.375 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olunmuşdur. Bakı şəhəri Nizami rayonu 145 saylı orta məktəbin məzunudur.



**MİRZƏYEV Cavidan Ramiz oğlu**

644.250 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olunmuşdur. Qəbələ rayonu 4 saylı şəhər orta məktəbinin məzunudur.



**MEHDİYEV Murad Fikrət oğlu**

643.750 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olunmuşdur. Bakı Anadolu Türk Liseyinin məzunudur.

**IV ixtisas qrupu** üzrə 3 təqaüd aşağıdakı tələbələrə verilmişdir:



**ŞƏRƏFXANOV Xəyal Səfərəli oğlu**

676.875 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olunmuşdur. Sumqayıt texniki və təbiət elmləri təmayüllü liseyinin məzunudur.



**RÜSTƏMBƏYOVA Günay Rüstəm qızı**

667.875 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olunmuşdur. Bakı şəhəri Nərimanov rayonu 47 saylı orta məktəbin məzunudur.



**ABIŞEV Orxan İlham oğlu**

666.250 balla Azərbaycan Tibb Universitetinin stomatologiya ixtisasına qəbul olunmuşdur. Bakı şəhəri Nəsimi rayonu 164 saylı orta məktəbin məzunudur.

Ermənistan silahlı qüvvələrinin işğalı altındakı rayonlardan olan yüksək ballı abituriyentlər üçün müəyyən edilmiş 6 təqaüdə aşağıdakılar layiq görülmüşdür:



**HÜMMƏTOV Yaşar Nizami oğlu**

(Ağdam rayonu) - 658.375 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olunmuşdur. Bakı şəhəri Suraxanı rayonu 279 saylı orta məktəbin məzunudur.



**FƏRƏCOV Ruslan Vaqif oğlu**

(Zəngilan rayonu) - 646.250 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olunmuşdur. Zəngilan rayonu 14 saylı orta məktəbin məzunudur.



**ƏHMƏDOV Vüsal Nüslət oğlu**

(Qubadlı rayonu) - 641.125 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olunmuşdur. Qubadlı rayonu Xanlıq 2 saylı orta məktəbinin məzunudur.



**NOVRUZOV Bəhram Yusif oğlu**

(Füzuli rayonu) - 624.375 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olunmuşdur. Bakı Anadolu Türk Liseyinin məzunudur.



**SURXAYOV Rəşid Zahid oğlu**

(Cəbrayıl rayonu) - 621.625 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olunmuşdur. Bakı şəhəri Nəsimi rayonu 54 saylı orta məktəbin məzunudur.



**PAŞAYEV Sənay Oqtay oğlu**

(Kəlbəcər rayonu) - 619.500 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olunmuşdur. Kəlbəcər rayonu 28 saylı orta məktəbin məzunudur.

Çadır şəhərciyində məskunlaşan yüksək ballı abituriyentlər üçün müəyyən edilmiş 1 təqaüdə layiq görulmuşdur.



**ŞAHVERDİYEVA Günel Məhəbbət qızı**

(Cəbrayıl rayonu) - 346.000 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat və informatika ixtisasına qəbul olunmuşdur. Biləsuvar rayonu 2 saylı çadır şəhərciyi orta məktəbinin məzunudur.

Azərbaycan Prezidenti Heydər Əliyev ən çox bal toplamış ali məktəb tələbələrini qəbul imtahanlarında əldə etdikləri yüksək nəticələrə görə səmimi təbrik etdi, onlara ən xoş arzularını bildirdi. Tələbələrə "Azərbaycan yeni minillikdə. Dövlət Kitabı" və gül dəstələri təqdim olundu.
Dövlətimizin başçısı görüşdə nitq söylədi.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ



- Azərbaycanda test üsulu ilə ali məktəblərə qəbul artıq on ildir ki, aparılır və hər il biz bunun müsbət nəticəsini görürük. Müsbət nəticəsi olduğu üçün də biz bu üsulu dəstəkləyirik və onun Azərbaycanda davam etməsi üçün lazımi imkanlar yaratmışıq və yaradacağıq. Biz ali məktəblərə qəbul ilə əlaqədar keçmişdə də çox üsullardan istifadə etmişdik ki, qəbul ədalətli olsun, ancaq biliyi olanlar ali məktəblərə qəbul edilsinlər. Ancaq təəssüflər olsun ki, o vaxtkı tədbirlər istənilən nəticəni verməmişdir. Test üsulu onlara nisbətən xeyli mütərəqqi üsuldur. Əgər hər bir abituriyentin bilik səviyyəsini tam təyin edə bilməsə də, müqayisədə bütün başqa üsullara nisbətən daha müvəffəqiyyətlə təyin etməkdə öz nəticəsini verir. Ancaq bu o demək deyildir ki, bu üsulun qüsurları yoxdur. Ona görə də mən hesab edirəm ki, gələcəkdə də bu üsuldan istifadə edərək, onun həyata keçirilməsində olan qüsurları aradan qaldırmaq lazımdır. Bu üsulu getdikcə təkmilləşdirmək lazımdır. Güman edirəm ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası bu barədə lazımi işlər görəcəkdir. Yəni bu komissiya da, heç kəs də belə düşünməməlidir ki, indi bu sahədə hər şey ideal vəziyyətdədir.

Bəli, bütün başqa üsullara görə burada biz daha da doğru-düzgün nəticələr alırıq. **Ancaq yenə də deyirəm, qüsurlar da, çatışmazlıqlar da var. Həm üsulun özü təkmilləşdirilməlidir, həm də onun həyata keçirilmə təcrübəsi təkmilləşdirilməlidir. Yəni onun həyata keçirilməsində buraxılan səhvlər və nöqsanlar aradan qaldırılmalıdır. Hər halda, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası öz işini tamamilə yekunlaşdıranda hər şeyi çox "çəhrayı" rənglərlə göstərməməlidir. Həm nailiyyətləri, həm də nöqsanları göstərməlidir. Nöqsanları aşkar etməlidir, axtarmalıdır və onları aradan qaldırmaq üçün lazımi tədbirlər görməlidir.**

Burada Məleykə xanımın verdiyi məlumat, hesab edirəm ki, ilkin məlumatdır. Düşünürəm ki, siz indi bu ilkin məlumatla ictimaiyyəti tanış edəndən sonra gərək daha da dərindən təhlil aparasınız. Bir-iki məsələ var. Siz dediniz ki, bu il ali məktəblərə daxil olmaq istəyənlərin sayı keçən illə müqayisədə 50 faiz azalıbdır. Elədirmi?

**Məleykə ABBASZADƏ:** Keçən il 87 min gənc sənəd verməşdi. Bu il onların sayı 30 min azalıbdır.

**Heydər ƏLİYEV:** 30 min azalıbdır. Yəqin bunun obyektiv səbəbləri var. Bunların hamısını araşdırmaq lazımdır. Yəni bu rəqəmləri verəndə, onları izah etmək lazımdır. Çünki ötən il ali məktəblərə sənəd verənlərin sayı 87 min idisə, bu il həmin rəqəm 30 min azalıbsa, biz bu barədə düşünməliyik: bu, reallıqdırmı və ya reallıq deyilmi? Yaxud hansısa bir meyl əmələ gəlibdir? Mən indi bunun dərinliyinə getmək istəmirəm, hesab edirəm ki, siz bunu anlayırsınız. Bunların hamısının cavabı verilməlidir ki, nə üçün belə vəziyyət yaranıbdır.

Sonra siz dediniz ki, keçən ilə nisbətən yüksək göstəricilərin sayı da azalıbdır. Elədirmi?

**Məleykə ABBASZADƏ:** Elədir.

**Heydər ƏLİYEV:** Bu, əvvəl dediyimə nisbətən bizi daha da narahat edən məsələdir. Əvvəl dediyimin, bəlkə də, obyektiv səbəbləri ola bilər. Amma nə üçün keçən ilə nisbətən yüksək nəticələr göstərənlərin sayı azalmış olsun? Yaxud da ki, mən belə başa düşdüm ki, imtahan verənlərin içərisində də o yüksək nəticələrlə orta məktəbi qurtarmış adamların sayı azalıbdır. Sizin nəticələrə, imtahanların nəticələrinə görə azalıbdır. Elədirmi?

**Məleykə ABBASZADƏ:** Elədir.

**Heydər ƏLİYEV:** Hər halda, bu, narahatedici haldır. Nə üçün? Bu elə bizim orta məktəblərin işinin göstəricisidir. **Bu, orta məktəblər, Təhsil Nazirliyi üçün siqnal olmalıdır. Bütün bu təhlillər, geniş araşdırmalar ona görə lazımdır ki, biz həqiqəti biləк, mənzərəni düzgün təsəvvür edək, yaxud da ki, görək. Bu, bir də ona görə lazımdır ki, bu vəziyyətdən irəli gələn məsələləri həll edək. Bunların əksəriyyəti, bu məsələlərin həll edilməsi Təhsil Nazirliyinin üzərinə düşür.** Ona görə də siz öz təhlilləriniz nəticəsində Təhsil Nazirliyinə çox geniş, ədalətli, doğru, düzgün material verməlisiniz. Onlar da bunun əsasında öz işlərində lazımi dəyişikliklər etməlidir, zəruri tədbirlər görməlidirlər.



Ona görə də mən hesab edirəm ki, siz müfəssəl təhlildən sonra bizə də, yəni mənə də geniş məlumat göndərəcəksiniz. O məlumata mən də baxım, - görürəm indi sən mənə nə isə vermək istəyirsən, amma hesab edirəm ki, təhlil gərək ondan da dərin olsun. Mən bunun əsasında Təhsil Nazirliyinə, başqa nazirliklərə göstəriş verməliyəm. Düşünürəm ki, heç mənim göstərişim olmadan da, bu ilin nəticələri ilə əlaqədar olaraq Təhsil Nazirliyi lazımi tədbirlər görməlidir. Ancaq eyni zamanda hesab edirəm ki, mən də bu barədə göstərişlər verməliyəm. Bəlkə bəzi məsələləri Təhsil Nazirliyi özü həll edə bilməyəcək, başqa təşkilatlar bu məsələlərin həllinə qoşulmalıdır. Bilirsinizmi, orta məktəb həyatımızın əsas sahələrindən biridir. Bu, xalqımızın gələcəyi ilə bağlı məsələdir. Orta məktəblərdə nə qədər uşaq oxuyur?

**Misir MƏRDANOV** (təhsil naziri): 1 milyon 700 min uşaq oxuyur.

**Heydər ƏLİYEV:** 1 milyon 700 min uşaq oxuyur. Bu il onların nə qədəri məktəbi qurtarıbdır?

**Misir MƏRDANOV:** Azərbaycan bölməsini 51 min uşaq qurtarıbdır.

**Heydər ƏLİYEV:** 51 min uşaq məktəbi bitiribdir. Bu 51 min uşağın biliyi hansı səviyyədədir, başa düşürsünüzmü? İndi biz iddia etmirik ki, orta məktəbi bitirənlərin hamısı ali məktəblərə daxil olmalıdır. Yox! Bu barədə heç o planın süni surətdə yerinə yetirilməsinə də ehtiyac yoxdur. Bunu bilin. Amma bilməliyik ki, bizim məktəblər uşaqlarımıza orta məktəb səviyyəsində nə qədər keyfiyyətli təhsil verir. Əgər uşaq orta məktəb səviyyəsində yaxşı təhsil alırsa və orta məktəbi yaxşı biliklə, orta məktəb həcmində savadla bitirirsə, onun sonra öz həyatını harada davam etdirməsi o qədər də əsas deyildir. Ali məktəbə getmək istəyən və orada yarışda özünə uğur qazana bilən ali məktəbdə oxuyacaqdır. Amma heç getmək istəməyən, getməsin. Azərbaycanın həyatının müxtəlif sahələrində gedib işləyəcəkdir. Keçmişdəki kimi hökm deyildir ki, gənclərin hamısı ali təhsilli olsun. Burada süni surətdə heç bir şey etmək lazım deyildir.

Ancaq yenə də deyirəm, biz orta məktəblərimizin səviyyəsini bilməliyik və onu ilbəil yüksəltməliyik. Amma sizin verdiyiniz məlumatlardan mən belə başa düşdüm ki, bu il göstəricilər ötən ilə nisbətən aşağı düşübdür. Deməli, təhsil nazirimiz bundan ciddi nəticə çıxarmalıdır. Nazirlik çox ciddi nəticələr çıxarmalıdır. Ümumi nəticə yox, ümumi sözlərlə yox. Baxmalıdır, hansı məktəbdə təhsilin səviyyəsi aşağı düşübdür, hansında yox. Məsələn, burada ən yüksək nəticələr əldə etmiş uşaqların hansı məktəblərdə oxumasını mən eşidəndə, görürəm ki, bunların elə bir qismi müəyyən bir qrup məktəblərdə oxuyubdur. Amma, eyni zamanda, əgər Oğuz rayonundakı orta məktəbdən gəlib belə yüksək qiymətlə ali məktəbə daxil olubsa, yaxud da ki, Biləsuvardakı çadır şəhərciyindəki məktəbdə oxuyan uşaq belə yüksək göstərici ilə ali məktəbə daxil olubsa, demək, o məktəbdə təhsil yüksək səviyyədədir. Amma indi baxın görün, nə qədər məktəblər olacaq ki, oradan bir nəfər də ali məktəbə daxil olmayıbdır. Güman edirəm ki, ərizə verənlərin içərisində bütün məktəblər təmsil olunubdur. Elədirmi? Amma baxmaq lazımdır ki, hansı məktəblərdən nə qədər gənc ali məktəblərə daxil olubdur.

Xatirimdədir, 2-3 il bundan qabaq mənə deyirdilər ki, Sumqayıt məktəbləri,- xüsusilə orada 2-3 məktəbin adını çəkirdilər, məzunlarının çoxu uğurla ali məktəblərə daxil olur. Deməli, məktəbdə, ümumiyyətlə, iş yaxşı qurulubdur. Bu, təkcə Sumqayıtda deyil, vaxtilə Bakıda da belə məktəblər vardı. Təəssüf-

lər olsun ki, Bakıda belə məktəblərin sayı azalıbdır.

İndi, bu dəqiqə məni daha çox narahat edən nə qədər gəncin ali məktəblərə qəbul olunub-olunmaması deyildir. **Məni narahat edən indi bizim universitetlərdə təhsil səviyyəsinin nə dərəcədə olması da deyil, baxmayaraq ki, orada da çoxlu qüsurlar var. Məni narahat edən ümumi təhsil, yəni bizim gənclərin ilkin təhsili, orta məktəblərdəki vəziyyət, orta məktəbin verdiyi təhsil və bu məktəbləri qurtaran uşaqların bilik səviyyəsidir. Məni narahat edən budur. Bu, ümumiyyətlə, bizim xalqın bilik səviyyəsini göstərir. Çünki çox yüksək nəticələr əldə edən ayrı-ayrı insanlar, yaxud da ki, tələbələr, elmi işlə məşğul olanlar hələ xalqın, millətin ümumi bilik səviyyəsini göstərə bilməz. Onun göstəricisi ola bilməz. Bu göstərici orta məktəblərdədir.**



Sən o məlumatı mənə vermək istədin, eybi yoxdur, verərsən, baxaram, deməyəsən ki, mən onu qəbul etmədim. Ancaq əvvəlcədən deyirəm ki, mənim bu sözlərimlə əlaqədar siz əlavə işlər görməlisiniz.

**Bizim məqsədimiz müstəqil Azərbaycanın gələcəyi üçün daha bilikli, zəkalı gənclər hazırlamaqdır. Siz indi ali məktəblərə daxil olan bütün gənclərin nümayəndələrisiniz. Siz Azərbaycanın gələcəyini təmin edən insanlar olacaqsınız.** Ona görə də ali məktəbdə təhsilə münasibətiniz və təhsilinizin nəticələri sizə ölkəmizin həyatında lazım olan yeri tutmağa imkan verəcəkdir və siz özünüz də öz həyatınızı istədiyiniz kimi qura biləcəksiniz. Eyni zamanda xalqımıza da, ölkəmizə də fayda verəcəksiniz. Sizin qarşınızda duran vəzifə bundan ibarətdir. Ona görə mən sizə və ali məktəbə daxil olmuş bütün builki tələbələrə, təkcə daxil olanlara yox, ali məktəbdə oxuyanlara da arzu edirəm ki, daha da yaxşı çalışın, daha çox bilik alın, daha çox fədakarlıq göstərin. Bax, buradakı uşaqların bu qədər yüksək bal toplamasının, təbiidir ki, səbəbi, birincisi, o məktəblərdə tədrisin yaxşı qurulmasıdır. Amma əsas uşaqların özləridir. Birincisi, onların hər birinin fərdi istedadı, ikincisi, dərsə və təhsil almağa münasibətidir. İndi bunların dərs keçdikləri siniflərdə, ola bilər, kimlərsə orta məktəbi aşağı qiymətlərlə bitiriblər. Yaxud da ki, heç bitirə bilməyiblər. Amma bunların sinfində yəqin ki, təhsil yüksək səviyyədəymiş ki, bu qədər yüksək bal toplaya biliblər.

Ona görə də yaxşı oxumaq birinci növbədə hər bir fərdin özündən asılıdır. **Mən bu baxımdan bizim bütün tələbələrə - bu il ali məktəblərə daxil olanlara, ali məktəblərdə təhsil alanlara müraciət edirəm: vaxtınızı boş keçirməyin. Bilin, ali məktəb illərində, universitet illərində keçirdiyiniz dövr, - biz bu dövrləri yaşamışıq, ona görə də mən bunu mücərrəd şəkildə demirəm, həyat görmüş adam kimi deyirəm, o illəri siz sonra xatırlayacaqsınız, - həyatınızın ən parlaq illəri olacaqdır. Əlbəttə ki, əgər siz o illərdən səmərəli istifadə etsəniz. Ona görə də mən sizi tələbəlik illərindən səmərəli istifadə etməyə, çalışıb maksimum bilik almağa çağırıram.** İndi hər bir gəncin bilik alması üçün çox geniş imkanlar var. Vaxtilə təhsil almaq üçün mənbə ayrı-ayrı kitablar idi. İndi texnika, texnologiya bilik almaq üçün nə qədər yeni imkanlar yaradıbdır. Müasir dünyada bilik almaq üçün o qədər geniş imkanlar yaranıbdır ki, buradan hər kəs özü üçün nə istəyirsə götürə bilər. Amma buna maraq, istək olmalıdır. Mən arzu edirəm ki, sizdə belə maraq, belə istək olsun.

**Bir də deyirəm, indi Azərbaycanın ali məktəblərində təhsil alan gənclər, siz ölkəmizin gələcəyisiniz. Özü də yaxın gələcəyi yox, uzaq gələcəyisiniz. Azərbaycan gələcəkdə sizin kimi gənclərdən formalaşmış insanların çiyinlərində yaşayacaqdır, inkişaf edəcəkdir. Mən də arzu edirəm ki, Azərbaycanın müstəqilliyi, Azərbaycanda həyata keçirilən iqtisadi siyasət davam etsin, Azərbaycan müstəqil dövlət kimi daim uğurla yaşaya bilsin. Xalqımızın rifah halı, həyatı gündən-günə yaxşılaşsın. Bunun üçün də çalışmaq lazımdır, fədakarlıq göstərmək lazımdır və sizin kimi gənclər özlərini gələcəyə hazırlamalıdırlar.**

**Mən sizə və bütün gənclərə, bütün tələbələrə Azərbaycanın gələcəyi ilə əlaqədar böyük ümidlərlə baxıram. Ona görə sizə cansağlığı və yeni-yeni uğurlar arzulayıram. Sağ olun.**

# I QRUP

## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### HƏBİBOV AFİQ ƏLİYAR OĞLU

671.250 balla Bakı Dövlət Universitetinin
tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Sumqayıt Özəl Türk Liseyinin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası Azərsəhmdar sutikinti idarəsinin istismar şöbəsində mühəndisdir.
Anası işləmir.



### NURİYEVA İLAHƏ ƏFSƏR QIZI

671.000 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Biləsuvar rayonu 2 saylı şəhər orta məktəbin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası Biləsuvar rayonunda kitabxanada işləyir.



### ALLAHVERDİYEV ELMİR FİRDOVSİ OĞLU

662.500 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 20 saylı orta məktəb - liseyin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası 1 saylı şəhər kliniki xəstəxanasında həkimdir.
Anası Azərbaycan Memarlıq və İnşaat Universitetində iqtisadçıdır.



### ƏLİYEV SEYMUR SAHİB OĞLU

654.375 balla Bakı Dövlət Universitetinin
tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Naxçıvan Türk Liseyinin (şəhər oğlanlar kolleci) məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası Naxçıvan Dövlət Universitetində müəllimdir.
Anası Naxçıvan şəhəri 10 saylı orta məktəbdə müəllimdir.



### QƏHRƏMANOV TEYRUN TƏVƏKKÜL OĞLU

646.375 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Gəncə şəhəri Nizami rayonu 11 saylı orta məktəbin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası Gəncə Musiqi Texnikumunda şöbə müdiridir.

I QRUP ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### NAXÇIVANSKİ CƏMŞİD YUSİF OĞLU

646.250 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Oğuz rayonu 2 saylı şəhər orta məktəbinin məzunudur.
Ailələri 7 nəfərdən ibarətdir.
Atası Oğuz rayonu İcra Hakimiyyəti başçısının müavinidir.
Anası Oğuz rayonu 2 saylı orta məktəbdə müəllimdir.



### HÜSEYNOV NİCAT ƏMƏNULLA OĞLU

644.750 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Salyan rayonu, Y.Xalac kənd 2 saylı orta məktəbinin məzunudur.
Ailələri 3 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası Salyan rayonu, Kolanı kənd feldşer məntəqəsinin müdiridir.



### MƏMMƏDLİ ELDAR AZAD OĞLU

643.875 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 134 saylı orta məktəbin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası Azərbaycan Beynəlxalq Bankında departament direktorunun müavinidir.
Anası Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində musiqi nəzəriyyəsi kafedrasının müdiridir.



### BABAYEV SÜLEYMAN ƏLİQULU OĞLU

638.750 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Salyan rayonu 8 saylı şəhər (əvvəlki 27 saylı dəmiryolu) orta məktəbinin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası Salyan rayonu, Qızılağac kənd orta məktəbində müəllimdir.
Anası Salyan rayonu 8 saylı orta məktəbində müəllimdir.



### RƏFİYEV AZAD NATİQ OĞLU

638.125 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 251 saylı orta məktəbin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası Barmek-Bakı elektrik şəbəkəsinin Yasamal rayonu üzrə rəis müavinidir.
Anası Azərbaycan Tibb Universitetində müəllimdir.



### HACIYEV ELVİN ƏLİNİYAZ OĞLU

633.750 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Salyan rayonu 1 saylı şəhər orta məktəbinin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası Salyan rayon mərkəzi xəstəxanasında həkimdir.



## ƏYYUBOV ƏLƏKBƏR MAHİR OĞLU

630.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının İnformatika və hesablama texnikası ixtisasına qəbul olub.
Şəki şəhər fizika-riyaziyyat və humanitar təmayüllü liseyin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası Şəki şəhəri 20 saylı orta məktəbdə müəllimdir.
Anası Şəki şəhəri uşaq xəstəxanasında həkimdir.



## PAŞAYEV ÜLVİ EHTİBAR OĞLU

622.500 balla Azərbaycan Dövlət Neft Akademiyasının kompüter riyaziyyatı ixtisasına qəbul olub.
Astara rayonu, Z.Əhmədzadə adına Pensər 2 saylı orta məktəbin məzunudur.
Ailələri 6 nəfərdən ibarətdir.
Atası Astara rayonu, Şahağac kənd orta məktəbində müəllimdir.
Anası işləmir.



## İBRAHİMOV MAKSUD ÜZEYİR OĞLU

621.875 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 2 saylı orta texniki və humanitar təmayüllü liseyin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası işləmir.



## BABAYEV FUAD RAUF OĞLU

620.125 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 53 saylı orta məktəbin məzunudur.
Ailələri 3 nəfərdən ibarətdir.
Atası Bakı Dövlət Universitetinin dosentidir.
Anası Bakı şəhəri 53 saylı orta məktəbdə müəllimdir.



## BAYRAMOV RUSLAN FƏZAİL OĞLU

618.125 balla Milli Aviasiya Akademiyasının aviasiya təhlükəsizliyinin təşkili ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, tə'sisçi Türkiyə Dəyan.Vəqfi) məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası işləmir.



## XƏLİLOV HEYDƏR KƏRAMƏT OĞLU

616.250 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Naxçıvan Türk Liseyinin (şəhər oğlanlar kolleci) məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası vəfat edib.
Anası işləmir.



## TALIBOV ELMAN ELDAR OĞLU

613.625 balla Azərbaycan Dövlət Neft Akademiyasının avtomatika və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 160 saylı orta məktəbin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası 1 saylı psixiatriya xəstəxanasında həkimdir.
Anası Azərbaycan Dövlət Neft Akademiyasında laborantdır.



## RƏHİMOV MİKAYIL NİZAMİ OĞLU

608.875 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Şəki şəhər Azərbaycan-Türk Özəl Liseyinin məzunudur.
Ailələri 7 nəfərdən ibarətdir.
Atası Qəbələ rayonu Yenikənd kənd orta məktəbində müəllimdir.
Anası işləmir.



## NƏSİROV EMİL ELMAR OĞLU

608.875 balla Azərbaycan Dövlət Neft Akademiyasının ekologiya və təbiətdən istifadə ixtisasına qəbul olub.
Bakı Avropa Liseyinin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası 4 saylı stomatoloji poliklinikada stomatoloq-terapevtdir.



## MİRHƏSƏNOVA İNARƏ VAQİF QIZI

602.125 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 102 saylı orta məktəbinin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası neft şirkətində menecerdir.
Anası işləmir.



## RZAYEVA MƏRYƏM ABDULLA QIZI

601.500 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Naxçıvan MR Ordubad rayonu, Ə.Ağayev adına 3 saylı orta məktəbin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası Ordubad rayonu Kotam kənd orta məktəbində müəllimdir.
Anası Ordubad şəhəri 1 saylı orta məktəbində müəllimdir.

# II QRUP

## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### QULUZADƏ EMİL ZAHİD OĞLU

693.750 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı Anadolu Türk Liseyinin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası Azərbaycan Memarlıq və İnşaat universitetində kafedra müdiridir.
Anası işləmir.



### İSMAYILOV RUSLAN ZAHİD OĞLU

687.875 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 24 saylı orta məktəbin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası Norveç Qaçqınlar Şurasının Azərbaycan nümayəndəliyində mühəndisdir.
Anası Bakı şəhəri 24 saylı orta məktəbdə müəllimdir.



### QULİYEV ORXAN ALTUN OĞLU

678.750 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı Özəl Türk Liseyinin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası Nizami rayonu 19 saylı uşaq poliklinikasında həkimdir.



### ŞİRİNOV ŞAMİL VİDADİ OĞLU

675.625 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Respublika olimpiya ehtiyatları məktəbinin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası Göyçay mərkəzi rayon xəstəxanasında urologiya şöbəsinin müdiridir.
Anası Göyçay mərkəzi rayon xəstəxanasında həkimdir.



### SEYİDOV ORXAN QADİR OĞLU

673.750 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Naxçıvan Türk Liseyinin (şəhər oğlanlar kolleci) məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası Bakı Politexnik kollecinin Naxçıvan filialında müəllimdir.
Anası Naxçıvan şəhəri 11 saylı orta məktəbdə müəllimdir.



## ƏLİYEV VÜSAL ELDAR OĞLU

673.125 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Salyan rayonu 8 saylı şəhər (əvvəlki 27 saylı dəmiryolu) orta məktəbinin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası fərdi işləyir, tornaçıdır.
Anası işləmir.



## RÜSTƏMOV SAHİB SAMİD OĞLU

671.875 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Salyan rayonu 8 saylı şəhər (əvvəlki 27 saylı dəmiryolu) orta məktəbinin məzunudur.
Ailələri 6 nəfərdən ibarətdir.
Atası meliorasiya müəssisəsində mühəndisdir.
Anası işləmir.



## TALIBOV KAMRAN RAUF OĞLU

671.875 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri 20 saylı orta məktəb - liseyin məzunudur.
Ailələri 3 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası Dövlət Kitab Palatasında baş biblioqrafdır.



## VƏLİZADƏ FƏRİD CƏBRAYIL OĞLU

666.875 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Qazax rayonu, S.Əfəndiyev adına 1 saylı şəhər orta məktəbinin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası Qazax şəhər mərkəzi xəstəxanasında həkimdir.
Anası Qazax şəhər poliklinikasında həkimdir.



## ABBASOV ELNUR HAKİM OĞLU

666.250 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 245 saylı orta məktəbinin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası Bakı Dövlət Universitetində "Maye kristallar" elmi-tədqiqat laboratoriyasının müdiridir.
Anası Azərbaycan Elmlər Akademiyasının "Aşqar" xüsusi texnoloji bürosunda mühəndisdir.



## RƏHMANOVA CƏMİLƏ VAQİF QIZI

662.000 balla Azərbaycan Dövlət İqtisad Universitetinin kommersiya ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 189 saylı orta məktəbinin məzunudur.
Ailələri 3 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası Milli Konservatoriya nəzdindəki musiqi kollecində musiqi müəllimidir.



### HÜMMƏTOV YAŞAR NİZAMİ OĞLU

658.375 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 279 saylı orta məktəbin məzunudur.
Ailələri 6 nəfərdən ibarətdir.
Atası neft və qazçıxarma idarəsində tərcüməçidir.
Anası işləmir.



### ƏSƏDOV SAMƏDDİN FƏXRƏDDİN OĞLU

657.500 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 54 saylı orta məktəbinin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası Azərbaycan Maliyyə-İqtisad kollecində tədris işləri üzrə direktor müavinidir.
Anası işləmir.



### HÜSEYNOV RUSLAN ƏYYAR OĞLU

655.750 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 145 saylı orta məktəbinin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası Polis Akademiyasında baş müəllimdir.
Anası işləmir.



### HÜSEYNOV EMİN AKİF OĞLU

655.000 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 164 saylı orta məktəbinin məzunudur.
Ailələri 3 nəfərdən ibarətdir.
Atası vəfat edib.
Anası bankda xəzinədardır.



### QƏDİROV PƏRVİZ PAŞA OĞLU

654.375 balla Bakı Dövlət Universitetinin gömrük işinin təşkili ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 245 saylı orta məktəbinin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası işləmir.



### TAĞIYEV CEYHUN ALİM OĞLU

604.750 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 266 saylı orta məktəbin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası təcrübə-sınaq zavodunda baş mühəndisdir.
Anası Bakı şəhəri 266 saylı orta məktəbdə müəllimdir.



## ABASOVA KÖNÜL QARDAŞƏLİ QIZI

604.625 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Hacıqabul şəhər 1 saylı orta məktəbin məzunudur.
Ailələri 8 nəfərdən ibarətdir.
Atası işləmir.
Anası işləmir.



## XƏLİLOVA NATƏVAN RAHİL QIZI

603.500 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 72 saylı orta məktəbin (liseyin) məzunudur.
Ailələri 6 nəfərdən ibarətdir.
Atası Sanqaçal dəmiryol stansiyasının rəisidir.
Anası Bakı şəhəri 94 saylı orta məktəbdə müəllimdir.



## AQAİ RAFAEL VYAÇESLAV OĞLU

603.375 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Qəbələ rayonu Nic kənd 1 saylı orta məktəbinin məzunudur.
Ailələri 3 nəfərdən ibarətdir.
Anası işləmir.



## İSMAYILOVA ZEYNƏB ƏLİ QIZI

602.000 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Mingəçevir şəhəri təbiət - riyaziyyat və humanitar elmlər təmayüllü liseyin məzunudur.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası çilingərdir.
Anası Mingəçevir şəhər uşaq bağçasında tərbiyəçidir.



## HİDAYƏTOV TURAL BAĞIR OĞLU

601.875 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 269 saylı orta məktəbin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası Bakı-Abşeron regional ekologiya idarəsində baş mütəxəssisdir.
Anası işləmir.



## QARAŞOVA DİLRUBƏ QİYAS QIZI

601.250 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Beyləqan rayonu İ.Quliyev adına Mil kənd orta məktəbinin məzunudur.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası vəfat edib.
Anası Beyləqan rayonu, Yeni Mil kənd uşaq bağçasının müdiridir.

# BİLİK YARIŞININ ÖNCÜLLƏRİ İLƏ SORĞUDAN NÜMUNƏLƏR

Əziz oxucular!
Ali məktəblərə yüksək balla qəbul olmuş gənclərlə ənənəvi anket sorğusu keçirmişik. Onlardan belə yüksək nəticə əldə etmələrinin səbəblərini, imtahanlara nə qədər müddətə hazırlaşdıqlarını və bu zaman hazırlığın hansı formalarından istifadə etdiklərini soruşmuş, bütövlükdə test üsulu ilə qəbul imtahanları haqqında rəylərini bilmək istəmişik. Onların qəbula hazırlığında "Abituriyent" jurnalının rolu və onun səhifələrində daha hansı materialların nəşrinin məqsədəuyğunluğu barədə fikirlərini öyrənmişik. Yüksək ballı gənclərdən gələcək abituriyentlərə öz məsləhət və tövsiyələrini söyləməyi, nə üçün məhz bu ixtisası seçdiklərini, cəmiyyətdə öz yerlərini necə gördüklərini, sonrakı planlarını, arzu, istək və təkliflərini bildirməyi xahiş etmişik. Cavablara heç bir münasibət bildirmədən və heç bir şərh vermədən bunlardan bəzilərini Sizə təqdim edirik .

## "Qəbul imtahanlarında belə yüksək nəticə əldə etməyinizin səbəbi?":

**EMİL QULUZADƏ:** Çalışqanlıq, məqsədyönlülük və möhkəm iradə sayəsində.

**XƏYYAM NAMAZOV:** Birincisi, bitirdiyim fizika - riyaziyyat və informatika təmayüllü liseyin müəllimlərinin mənə verdiyi yüksək bilik; ikincisi, özümün oxumağa olan böyük həvəs və çalışqanlığım.

**KAMRAN HEYDƏROV:** Qayğıkeş və savadlı müəllimlər və sinif yoldaşları ilə əhatə olunduğuma görə, valideynlərimin hədsiz qayğısı və bir də hazırlıq kursunda ardıcıl məşğul olmağım sayəsində belə yüksək nəticə əldə etdim.

**HƏSƏN MANSUROV:** Təhsil müddətində daimi çalışqanlıq və dərin bilikli müəllimlərin köməyi mənim uğurumun başlıca səbəbləridir. Bütün təhsil müddətində, xüsusilə də 11-ci sinifdə intensiv çalışmışam, əsasən, müstəqil surətdə, bəzi fənlər üzrə isə repetitor müəllimlərin köməyi ilə hazırlaşmışam.

**PƏRVİZ MƏMMƏDOV:** Seçdiyim ixtisasa dərin rəğbətim, inadkarlığım və "Abituriyent"in göstərdiyi düzgün yol.

**AYSEL ABBASLI:** Ciddi hazırlaşmağım, qəbul imtahanlarının yüksək səviyyədə təşkili və obyektivlik.

**ELÇİN ALLAHVERDİYEV:** Valideyn və müəllimlərimin qayğısı, özümün gecə - gündüz çalışmağım.

**XƏYAL ŞƏRƏFXANOV:** Çalışmalarda məqsədyönlülük, sistemlilik, vaxtın düzgün bölüşdürülməsi.

## "Qəbula hazırlığınızda "Abituriyent" jurnalının rolu barədə nə deyə bilərsiniz və onda daha hansı materialların dərcini faydalı hesab edirsiniz?":

**AZAD RƏFİYEV:** Qəbula dair bütün məlumatları "Abituriyent" jurnalının köməyi ilə öyrənmişəm.

**ELVİN HACIYEV:** "Abituriyent"i özümə əsas hazırlıq mənbəyi sanmışam. Jurnalda bundan sonra da dərsliklərin çətin, mürəkkəb mövzularına dair şərhlərə, izahlara daha geniş yer verilməsini məqsədəuyğun sayıram.

**MAKSUD İBRAHİMOV:** Журнал сыграл большую роль, в моей подготовке. Он издаётся превосходно, тщательно, с большим профессионализмом. В республике подобные журналы не издаются.

**MƏRYƏM RZAYEVA:** Yüksək bal toplamağımda "Abituriyent"in böyük rolu olub. İstərdim ki, jurnalda çətin məsələ və misalların həllinə daha çox yer verilsin.

**GÜNEL ŞAHVERDİYEVA:** "Abituriyent" jurnalı mənim üçün 2-ci müəllim olub. Jurnalda nəzəri materiallara daha geniş yer verilməsi faydalı olar.

**PƏRVİZ QƏDİROV:** Qəbula hazırlığımda "Abituriyent" jurnalının çox böyük köməyi olub. Jurnalda dərsliklərdə ötəri toxunulmuş mövzulara dair şərhlərə geniş yer verilməsini arzulayıram.

**CEYHUN TAĞIYEV:** "Abituriyent"in daimi oxucusuyam. Mənə böyük köməyi olub. İstərdim ki, gələcəkdə jurnalda daha çətin və rəngarəng test variantları verilsin. Həmçinin ixtisaslar barədə geniş məlumatların çapı davam etdirilsin.

**RUSLAN MİKAİLOV:** Bu jurnalın hazırlığımda rolu çox böyükdür. Məhz onun köməkliyi ilə daha çox hansı mövzuları oxuyacağımı, test imtahanlarında nələrə xüsusi diqqət etmək lazım olduğunu öyrənmişəm.

**LEYLA SÜLEYMANOVA:** Журнал очень помог мне, во-первых – в выборе специальностей, во-вторых – в подготовке к поступлению, за что я ему благодарна.

**ERVİN NAĞIYEV:** Bu jurnal abituriyentlər üçün etibarlı bələdçidir. Mübaliğəsiz deyirəm ki, ali məktəbə qəbul olmağımın başlıca səbəbkarı "Abituriyent"dir.

**JALƏ ƏZİZOVA:** Jurnalın qəbula hazırlığımda xidməti çox olub. 2 il ərzində "Abituriyent" jurnalının bütün nömrələrini alıb oxumuşam. İstərdim ki, abituriyentlərin arzusuna əsasən gələcəkdə onda çətin testlərin izahlarına daha geniş yer verilsin.

**SEVİNC MEHDİZADƏ:** Humanitar fənlər üzrə mübahisəli məsələlərlə çox rastlaşırdım. Amma "Abituriyent" jurnalında verilən test örnəkləri və çətin sualların izahları sayəsində belə məsələlər öz qaydasına düşdü.

**PƏRVİZ MƏMMƏDOV:** "Abituriyent" daha səylə və məqsədyönlü çalışmağıma kömək edirdi, dərsliklərdə ətraflı izah olunmayan mövzulara aid materialları jurnaldan dönə-dönə oxuyurdum.

**AYSEL BABAYEVA:** Jurnaldakı məqalələri müntəzim oxuyur və buradakı psixoloq məsləhətləri ilə özümü imtahana hazırlayırdım.

**ŞƏBNƏM RƏHİMLİ:** "Abituriyent" jurnalındakı testlərdən və psixoloq məsləhətlərindən çox istifadə etmişəm. İmtahan üçün lazım olan bütün məlumatları ondan almışam.

**AYSEL HƏSƏNOVA:** "Abituriyent"də dərc olunan testlər, tövsiyələr, şərhlər, izahlar, məlumatlar imtahana hazırlaşmaqda mənə istiqamət verdi. Jurnalda bundan sonra daha çox məntiqi düşüncə tələb edən sualların dərc olunmasını təklif edərdim.

**AYGÜN ƏHMƏDLİ:** Jurnalın hazırlığımda böyük rolu olub. Mənə elə gəlir ki, onsuz bəlkə də ali məktəbə qəbul olmaq qeyri-mümkün olardı. Yaxşı olar ki, jurnalın səhifələrində bundan sonra da dərsliklərdə olmayan materiallar dərc olunsun.

**KÖNÜL ABASOVA:** Jurnalın qəbula hazırlığımda rolu əvəzsizdir. Məncə,burada şagirdlərin imtahana hazırlığı üçün həmişə hər cür materiallar var, onları, sadəcə olaraq, müntəzəm öyrənmək lazımdır.

## Test üsulu ilə qəbul imtahanı haqqında rə'y və təkliflər:

**İLAHƏ NURİYEVA:** Abituriyentin heç bir kənar təzyiq olmadan, sərbəst imtahan verməsi test sisteminin ən böyük məziyyətidir.

**RUSLAN İSMAYILOV:** Тестовая система позволяет обхватить весь изучаемый в школе материал.

**SAMƏDDİN ƏSƏDOV:** Bütün abituriyentlərin eyni vaxtda və qısa müddət ərzində imtahan verə bilməsi test üsulunun ən böyük üstünlüyüdür. Məncə, qəbul imtahanlarında dərsliklərin mövzuları ilə əlaqədar suallardan başqa məntiqi testlərdən də istifadə etmək lazımdır. Bu, abituriyentlərin həm savadını, həm də dünyagörüşü və məntiqi təfəkkürlərini aşkara çıxarmağa imkan verərdi.

**RUSLAN HÜSEYNOV:** Отсутствие субъективного фактора.

**XƏYYAM NAMAZOV:** On minlərlə abituriyentin illərdən bəri mənimsədiyi biliyi cəmi 3 saatda nümayiş etdirməsi bu sistemin əvəzsiz üstünlüyüdür.

**FARİZ ƏLİYEV:** Məncə test imtahanları ən ideal və obyektiv üsuldur. Təklifim: imtahanda məntiqi təfəkkürlə əlaqədar testlərə də geniş yer verilsin.

**KAMRAN ABBASOV:** Test sistemində abituriyentlərin yalnız bilik səviyyəsinin deyil, məntiqlərinin də onların köməyinə çatdığını düşünürəm.

**NAİLƏ MƏHƏRRƏMOVA:** Тестовая система позволяет наиболее точно и беспристрастно оценить знания абитуриента.

**POLAD ƏZİZOV:** Test üsulu abituriyentləri imtahanın psixoloji təsirindən nisbətən azad edir.

**BƏHRAM NOVRUZOV:** Məncə, bu üsulun yeganə çatışmayan cəhəti imtahanda köçürmə hallarının olmasıdır. Test variantlarının sayını artırmaq lazımdır ki, belə halların qarşısı alınsın.

**EMİN KƏRİMOV:** Məncə, bu sistemin elə bir çatışmayan cəhəti yoxdur. Yalnız imtahan zamanı nəzarəti artırmaq vacibdir.

**NATALYA SUXOVEYEVA:** Преимущество тестовой системы в том, что результат экзамена объективен и не зависит от мнения экзаменатора.

**GÜNEL FEYZULLAYEVA:** Asan suallara nisbətən çətin suallara yüksək bal tətbiq olunmasının tərəfdarıyam.

**ERVİN NAĞIYEV:** Bu imtahan üsulu bilik və bacarığı daha münasib şəkildə üzə çıxarır, "ən yaxşıları" müəyyən edir. Buna görə də o, ən mütərəqqi üsuldur. Lakin imtahanqabağı abituriyentləri çox gözlətmək onları yorur.

**XIDIR MAHMUDXANOV:** Test üsulu dəqiqliyi, düzgünlüyü, həm də şagirdlərin öz biliyini sərbəst ifadə edə bilmələri baxımından digər üsullardan fərqlənir.

**AYTƏKİN DƏMİRÇİYEVA:** Xarici dil fənnində qrammatikadan başqa, dili şifahi cəhətdən də bilmək tələb olunur. Məncə, 4 əsas imtahandan 3-ü test, 1-i şifahi olmalıdır.

**JALƏ ƏZİZOVA:** Qısa müddətdə abituriyentlərin bütün fənlər üzrə biliyinin obyektiv və düzgün yoxlanılması test üsulunun şəksiz üstünlüyüdür. Məncə, bu üsulun çatışmayan cəhəti yoxdur. İstərdim ki, ümumiləşmiş fənn bloku üzrə testlərin sayı artırılsın.

**SEVİNC MEHDİZADƏ:** Bu sistemin çox böyük üstünlüyünü heç kəs inkar edə bilməz. Məncə, yeganə problem cavab kartını doldurarkən yol verilən səhvlərə görə düzgün cavabı kompüterin nəzərə almaması ilə bağlıdır. Abituriyentin taleyi dairəni tam doldurmamaq və ya dairədən kənara çıxmaq kimi xırdalıqları nəzərə almayan kompüterlərin tətbiqindən asılı olmamalıdır.

**ALTAY CƏFƏROV:** Test üsulu ilə imtahan abituriyentin bilik və bacarığının tam aşkara çıxmasına şərait yaradır.

**XƏYAL ŞƏRƏFXANOV:** İmtahan nəticələrinin doğru-düzgün yoxlanılması bu sistemin ən müsbət cəhətidir.

**ŞƏBNƏM RƏHİMLİ:** Bütün fənlər üzrə imtahanın bir gündə olması, abituriyentin biliyinin obyektiv qiymətləndirilməsi, imtahanda heç bir maneçiliyin olmaması. Bunlardır test üsulunun üstün tərəfləri.

**GÜLÜSTAN BAYRAMOVA:** Digər üsullardan fərqli olaraq test sistemində abituriyentlərin biliyi hərtərəfli yoxlanılır.

**DİLRUBƏ QARAŞOVA:** Bu üsulun ən üstün cəhəti bütün imtahanların bir gündə keçirilməsi, yəni vaxta qənaət olunmasıdır.

**YUNİS MƏMMƏDOV:** Daha bilikli, dərin təfəkkürlü, daha bacarıqlı gənclərin seçilməsinə imkan verir.

## "Gələcək abituriyentlərə məsləhət və tövsiyələriniz?":

**AZAD RƏFİYEV:** Ancaq və ancaq biliyə arxalanmalı.

**İLAHƏ NURİYEVA:** Aşağı siniflərdən başlayaraq müntəzəm və planlı surətdə hazırlaşmalı.

**ORXAN QULİYEV:** Plan və proqramla hazırlaşmağı tövsiyə edərdim.

**CƏMİLƏ RƏHMANOVA:** Я бы хотела пожелать всем поступающим выбирать специальности в соответствии со своим желанием. Надо слушать свое сердце. Выбирайте ту специальность, по которой, работая в будущем вы сможете получать удовольствие от этого дела. Ещё хотела бы пожелать абитуриентам правильно распределить свое время, чтобы не слишком переутомляться. Это очень сильно может повлиять на ваши результаты. Иногда отвлекайтесь от занятий. Не нервничайте много и у вас все получится!

**KAMRAN ABBASOV:** Gələcək abituriyentlərə test nümunələrini əzbərləmək əsasında deyil, dərsliklərin köməkliyi ilə hazırlaşmağı məsləhət görərdim.

**ALTAY CƏFƏROV:** "Abituriyent" jurnalından və dərsliklərdən tam şəkildə istifadə etməklə, bütün qüvvənizlə çalışmaqla Siz hər cür nailiyyət əldə edə bilərsiniz.

**ELÇİN ALLAHVERDİYEV:** Dərslikləri yaxşı oxusunlar, biliklərini yoxlamaq üçün testlər bankından istifadə etsinlər, ancaq onları əzbərləməsinlər.

**ŞƏBNƏM RƏHİMLİ:** Məktəbdə yaxşı və əla qiymətlərlə oxusunlar. Dərslik və testlər bankından istifadə edərək ciddi hazırlaşsınlar . Özlərinə güvənsinlər.

**AYNUR SƏMƏDOVA:** Orta məktəb proqramını dərin və əhatəli öyrənmək lazımdır.

**GÜLÜSTAN BAYRAMOVA:** Müsbət nəticə əldə etmək üçün məktəbdə 1-ci sinifdən ta 11-ci sinifə kimi daim yaxşı oxumaq lazımdır. Onda biliklər daha möhkəm olacaq.

## “Nə üçün məhz bu ixtisası seçmisiniz? Bu ixtisasa yiyələnməklə gələcək həyatda öz yerinizi, mövqeyinizi necə görür, necə təsəvvür edirsiniz? Gələcək həyat planlarınız?”:

**FARİZ ƏLİYEV** *(ADİU, beynəlxalq iqtisadi münasibətlər ixtisası)*
Məncə ölkənin iqtisadiyyatı onun təməl daşlarını təşkil edir. İqtisadi səviyyəsi yüksək olan hər hansı bir ölkə hərtərəfli inkişaf səviyyəsinə ucala bilər. Mən də gələcəkdə məhz bu sahədə çalışaraq ölkəmizin yüksək inkişafında və dünya arenasında qüdrətli bir dövlət kimi tanınmasında öz bilik və bacarığımı sərf etmək arzusundayam.

**NƏRMİN MİRZƏYEVA** *(ADİU, beynəlxalq iqtisadi münasibətlər ixtisası)*
İqtisadçı olmağı uşaqlıqdan arzulamışam, ata-anamın yolunu davam etdirmək istəmişəm. Gələcəkdə magistraturanı, aspiranturanı bitirib vətənimə, xalqıma layiqli bir insan olmaq istərdim. İqtisadiyyatın gələcək inkişafı üçün, fikrimcə, bizə - gələcək nəslə böyük ehtiyac var və mən özümü gələcəyin gözəl bir mütəxəssis kimi görürəm.

**MARTA NOVRUZOVA** *(Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, inzibati idarəetmə ixtisası)*
Я думаю, нашей республике сейчас нужны способные, энергичные организаторы. Сейчас, когда есть такие благоприятные условия для поднятия экономической жизни страны, я хотела бы своей деятельностью способствовать этому процессу. Хочу посвятить свою жизнь благосостоянию нашего народа.

**NİGAR ƏLİYEVA** *(ADİU, beynəlxalq iqtisadi münasibətlər ixtisası)*
Так как Азербайджан стал независимой республикой, нам сейчас необходимо расширять связи с другими государствами. Я бы хотела, чтобы экономика нашей страны была на высоком уровне, чтобы Азербайджан занял одно из ведущих мест в мировом хозяйстве, и я буду стараться способствовать этому. Поэтому я считаю выбранную мною специальность наиболее подходящей.

**UĞUR İBRAHİMLİ** *(ADİU, beynəlxalq iqtisadi münasibətlər ixtisası)*
Ən böyük arzum Azərbaycanı dünya səviyyəsində təmsil edən "iş adamı" olmaqdır. Bu ixtisası seçməyimin məqsədi Azərbaycanın iqtisadi cəhətdən uca zirvələrə çatdırılmasına yardımçı olmaqdır.

**ELÇİN ƏKBƏROV** *(ADİU, iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisası)*
Birincisi, bu ixtisasda olan fənlər mənim bilik səviyyəmə uyğundur, ikincisi iqtisadiyyat Azərbaycanda inkişaf edən ən mühüm sahələrdən biridir və dövlətimizə güclü iqtisadçılar lazımdır. Həm də bu ixtisasın perspektivləri böyükdür.

**RUSLAN RƏŞİDOV** *(ADİU, ümumi iqtisadiyyat ixtisası)*
Выбрал эту профессию потому, что считаю её наиболее престижной и прибыльной. А также полагаю её очень интересной, так как она обещает близкие контакты с людьми, связи с другими народами. Считаю эту профессию самой лучшей. Пока есть государства и связи между ними, всегда нужны люди этой профессии.

**JALƏ ƏZİZOVA** *(BDU, hüquqşünaslıq ixtisası)*
2000-2002-ci illərdə 145 saylı məktəbdə məktəb parlamentinin sədri olarkən, müxtəlif tədbir və konfranslarda uşaq hüquqlarının müdafiəsi ilə əlaqədar etdiyim çıxışlar məndə bu ixtisasa sonsuz həvəs oyatdı. Həyatımı bu ixtisasa bağlamaqda, məncə, səhv etməmişəm. İstərdim ki, xarici dillərə daha dərindən yiyələnərək gələcəkdə Avropa ölkələrindən birində təhsilimi davam etdirim, çünki bizim gənc respublikamıza savadlı hüquqşünaslar çox lazımdır.

**SEVİNC MEHDİZADƏ** *(BDU, beynəlxalq münasibətlər ixtisası)*
Əvvəla, dünya ölkələri ilə siyasi-iqtisadi əlaqələri sürətlə inkişaf edən Azərbaycanın bu sahədə ixtisaslı kadrlara xüsusi ehtiyacı var. Digər səbəb məndə beynəlxalq istiqamətli ixtisaslara böyük marağın olmasıdır. Nəhayət, bu, çox perspektivli sahədir. Mən bu fakültəni bitirib xarici siyasət idarələrində, diplomatik institutlarda, eləcə də xarici dövlətlərin ölkəmizdəki siyasi və diplomatik qurumlarında çalışmaq, ölkəmizi səfir simasında başqa xarici ölkələrdə təmsil etmək arzusundayam.

**FƏRİDƏ LÜTFƏLİYEVA** *(BDU, beynəlxalq münasibətlər ixtisası)*
Gündən-günə qarşısında geniş üfüqlər açılan Azərbaycanımızın yeni, təcrübəli, öz ixtisasını gözəl bilən kadrlara, mütəxəssislərə ehtiyacı var. Mən də özümü onlardan biri kimi görmək istədim. Ən böyük arzum Vətənimizi beynəlxalq miqyasda layiqincə təmsil etməkdir. Tələbəlik illərində müvəffəqiyyətlə çalışıb əlaçı olmaq və təhsilimi magistraturada davam etdirmək istərdim.

**AYSEL BABAYEVA** *(Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, beynəlxalq münasibətlər ixtisası)*
Azərbaycanımızı həmişə şərəflə təmsil etmək, xalqımızın hüquqlarını müdafiə etmək niyyətində olmuşam. Özümü Azərbaycanımıza layiq diplomat kimi görmək arzusundayam.

**ALTAY CƏFƏROV** *(BDU, beynəlxalq münasibətlər ixtisası)*
Azərbaycanı dünya dövlətləri sırasında layiqincə təmsil etmək, onun gələcək uğurları üçün əmək sərf etmək məqsədilə məhz bu ixtisası seçmişəm. Azərbaycana qarşı tarixi ədalətsizliyin ləğv olunması, vətənimin haqq səsinin bütün dünyada eşidilməsi, dünyanın ən güclü dövlətlərindən biri olması uğrunda mübarizə mənim əsas məqsədim, amalım, borcumdur.

**DİLRUBƏ QARAŞOVA** *(ATU, müalicə işi ixtisası)*
1997-ci ildə 18 yaşlı bacımın beyin şişindən vəfat etməsi və müasir tibbin bu xəstəlik qarşısında acizliyi bu ixtisası seçməyimə səbəb oldu. Azərbaycan tibbini bütün dünyada tanıdan və sağalmaz xəstəlikləri insanlar qarşısında diz çökdürən həkimlərdən biri olmaq fikrindəyəm. Gələcək planlarımdan biri ATU-nu əla qiymətlərlə bitirmək, ömrümün sonuna qədər tibb elmi ilə məşğul olmaq və onu inkişaf etdirməkdir.

## "Sorğuya əlavə olaraq demək istədiyiniz fikirlər, arzular, təkliflər?":

**İLAHƏ NURİYEVA:** Arzu edirəm ki, gənclər ali məktəbə qəbulda bu il olduğu kimi həmişə düzgün seçilsin və buna görə mən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına təşəkkür edirəm.

**FARİZ ƏLİYEV:** Sevindirici haldır ki, ölkəmizdə bu imtahanlarda yüksək bilik və bacarıq nümayiş etdirən abituriyentlərə böyük diqqət və qayğı var. Bütün bunlara görə mən bütün abituriyentlər adından ölkəmizin rəhbərliyinə, həmçinin Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına öz dərin təşəkkürümü bildirirəm.

**NƏRMİN MİRZƏYEVA:** Mənim gələcək 11-cilərə məsləhətim odur ki, heç bir ara-bərə söz-söhbətlərinə inanmasınlar, ciddi oxusunlar. Mən bu il 160 saylı məktəbdə imtahan verdim, çox ciddi, düzgün və sakit bir imtahan keçdi. Qəbulda yaradılan belə şəraitə görə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında işləyənlərin hamısına öz minnətdarlığımı bildirir, "çox sağ olun" deyirəm. Qəbula hazırlığımda böyük əməyi olan müəllimlərimə də təşəkkürümü bildirirəm.

**JALƏ ƏZİZOVA:** Mən TQDK-nın test üsulu ilə keçirdiyi imtahanların obyektivliyinə əvvəlcədən də inanırdım və qəbul olunacağıma ümidvar idim. İmtahan zamanı yaradılan əla şərait, tam sakitlik, abituriyentlərin tək-tək oturdulması, nəzarətçilərin ciddiliyi çox xoşuma gəldi. İstərdim ki, gələcəkdə də abituriyentlər üçün belə şərait yaradılsın. Sizə öz çətin işinizdə böyük müvəffəqiyyətlər arzulayıram.

**SEVİNC MEHDİZADƏ:** "Abituriyent" jurnalı respublikanın güclü mütəxəssisləri tərəfindən hazırlanan, şagirdləri tələbə səviyyəsinə çatdırmaq üçün əvəzsiz xidmət göstərən dəyərli bir nəşrdir. Burada abituriyenti maraqlandıran hər şey: statistik məlumatlar, psixoloq məsləhətləri, düşündürücü və əyləncəli suallar, ali məktəblər, onların fakültələri və ixtisasları ilə bağlı informasiyalar, eləcə də çətin test örnəkləri, ümumi fənn blokuna aid sual variantları və onlarca digər zəruri mövzular işıqlandırılır. Ancaq, zənnimcə, jurnalda xarici ölkələrdəki təhsil sistemi, bizim təhsil sistemimizin onlardan fərqli, qüsurlu və ya üstün cəhətləri, xarici ölkə universitetlərində oxuyan tələbələrimizin həyatı və təhsili, xarici ölkələrdə təhsil almağın müsbət və ya mənfi cəhətləri barədə əlavə yazılar verilərsə, bu jurnalla yalnız şagirdlər deyil, ali məktəb tələbələri də yaxından maraqlanardı. Şəxsən məni bu cür məlumatlar çox maraqlandırır. "Abituriyent" jurnalının növbəti saylarında belə informasiyalarla rastlaşmaq məni çox sevindirərdi. Hər halda, mən bu mükəmməl tövsiyələr və məlumatlar toplusunun yaradıcılarının fəaliyyətini çox yüksək qiymətləndirirəm. Yəqin digər tələbələr də mənimlə razılaşarlar ki, bugünkü müvəffəqiyyətimizdə "Abituriyent" jurnalı ən azı şəxsi çalışqanlığımız və dəyərli müəllimlərimiz qədər rol oynayıb.

**ŞƏBNƏM RƏHİMLİ:** Azərbaycana savadlı gənclər çox lazımdır. Öz ixtisası ilə yanaşı, tariximiz, dilimiz, ədəbiyyatımız və incəsənətimizi yaxşı bilən, hərtərəfli inkişaf etmiş, vətənimizi ürəkdən sevən mütəxəssislərin yetişdirilməsini arzu edirəm. Bir də təklif edərdim ki, orta məktəblərdə də imtahanlar məhz bu cür test üsulu ilə keçirilsin.

**DİLRUBƏ QARAŞOVA:** İmtahan materialları ilə bağlı təkliflərim və xahişlərim: bütün yeni məlumatlar, çap olunan dərs vəsaitləri, imtahana hazırlıq vəsaitləri, "Abituriyent" jurnalının nömrələri, eləcə də xüsusi buraxılışları mümkün qədər tez və tam şəkildə respublikanın bütün rayonlarına çatdırılsın. Məncə, bu, qəbul imtahanına hazırlaşan hər kəs üçün ən gözəl kömək olar. Bir də çox istərdim ki, bütün bölgələrdə ali təhsilə hazırlıq kursları açılsın. Orta məktəb nə qədər dərin bilik versə də, hazırlıq kursları bu bilikləri ümumiləşdirməkdə yardımçı rol oynayır.

**Sorğu materialları üzərində işlədi:**
**Rabil Novruzov**

# MƏKTUBLARDAN SƏTİRLƏR



Əziz oxucular!
Ali məktəblərə tələbə qəbulu müsabiqəsi xeyli vaxtdır ki, başa çatıb. Ancaq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına hələ də ictimaiyyətin ən müxtəlif təbəqələrindən imtahanların gedişi və nəticələri haqqında çoxlu məktub, teleqram və müraciətlər daxil olmaqdadır. Jurnalımızın bu sayında ictimai rəyin əks-sədası olan belə materiallara yer ayırırıq.

## Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Sədri M.Abbaszadəyə



Hörmətli Məleykə xanım! 2002-ci il bir çoxları kimi, bizim ailə üçün də son dərəcə uğurlu il oldu. Axı böyük oğlumuz Oruc Əhmədov qəbul imtahanlarını müvəffəqiyyətlə verib ali məktəbə daxil olub.

Mən özüm ixtisasca tarix müəllimiyəm. Mənim üçün çox əlamətdardır ki, o zaman Bakı Dövlət Universitetinin tələbəsi olduğum illər xalqımızın böyük oğlu Heydər Əliyevin doğma Azərbaycanımıza rəhbərlik etdiyi dövrə təsadüf etmişdir. Bu gün isə oğlum tələbə adı qazanmışdır. Azərbaycan Pedaqoji Universitetinin tarix ixtisasına ödənişsiz əsaslarla qəbul olmuşdur. Mənə yenə olduqca xoşdur ki, oğlumun da tələbəliyi dövründə respublikamızın başçısı Heydər Əliyevdir. O yenə də qayğıkeş bir ata kimi, müdrik ağsaqqal kimi, uzaqgörən dövlət xadimi kimi ölkə gənclərinə, vətən övladlarına xüsusi diqqət göstərir, etimad bəsləyir.

Hörmətli Məleykə xanım! Bizim Gədəbəy rayonunun Zəhmət kəndindən bu il 4 nəfər abituriyent respublikamızın ən nüfuzlu ali məktəblərinə qəbul olmuşdur. Mən bu sevinc, fərəh dolu günümüzdə ailəmiz adından Sizə və kollektivinizə öz səmimi və dərin təşəkkürümü bildirirəm, təhsilimizin və elmimizin çiçəklənməsində Sizə uğurlar diləyirəm.

***Hörmət və ehtiramla:***
***Zahid Əhmədov,***
***Gədəbəy rayonu, Zəhmət kəndi.***
***02 sentyabr 2002-ci il***

## Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına



Salam! Mən İbadov Rafael Bəfadar oğlu TQDK nəzdindəki hazırlıq kursunda yüksək səviyyədə qəbula hazırlıq keçmişəm. Hal-hazırda mən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil alıram.

Bu məktubu Sizə yazmaqda məqsədim başda Sədr Məleykə xanım olmaqla Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının bütün əməkdaşlarına minnətdarlığımı bildirməkdir.

Müstəqil Azərbaycanın müasir təhsil sisteminin inkişafında Sizin xidmətləriniz əvəzolunmazdır. Sizə gələcək işlərinizdə də uğurlar arzu edirəm.

***Rafael İbadov,***
***ADMİU-nun kulturologiya***
***fakültəsinin I kurs tələbəsi.***

MƏKTUBLARDAN SƏTİRLƏR

## Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına



Azərbaycan Respublikasının sürətlə inkişaf etdiyi hazırkı dövrdə hər bir azərbaycanlı gəncə öz istedadını, fiziki və əqli qabiliyyətini nümayiş etdirmək üçün geniş imkanlar yaradılıb. Buna görə mən ilk növbədə respublika rəhbərinə - öz həyat və fəaliyyəti ilə Azərbaycan gənclərinə nümunə olmuş Prezidentimiz Heydər Əliyevə bütün şagird və tələbələr adından öz minnətdarlığımı bildirirəm. Eləcə də Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına, qəbul imtahanlarının obyektiv və yüksək səviyyədə keçirilməsini təşkil etmiş bütün şəxslərə öz təşəkkürümü bildirirəm.

Mən fürsətdən istifadə edib jurnalınız vasitəsilə qəbul imtahanlarında yüksək uğur qazanaraq ali təhsil ocaqlarına daxil olmuş yaşıdlarımı təbrik edirəm. Arzu edirəm ki, onlar gələcəkdə cəmiyyətimizin bütün sahələrində, həm respublika daxilində, həm də respublikadan kənarda daha yüksək nailiyyətlər əldə etsinlər, xalqımızı beynəlxalq aləmdə müvəffəqiyyətlə təmsil etsinlər. İstərdim ki, hər bir Azərbaycan gənci gələcəklə bağlı böyük arzularla yaşasın və bu arzuların reallaşması doğma Azərbaycanımızı pillə-pillə yüksək zirvələrə ucaltsın.

Son illər Azərbaycanda siyasi-iqtisadi tərəqqi getdikcə yüksəlir. Yeni-yeni nailiyyətlər əldə olunur. Təhsilə də böyük qayğı göstərilir. Bütün bunlar Azərbaycan gənclərini fəaliyyətə ruhlandırır. Şübhəsiz ki, hazırkı gənclərin yüksək ixtisaslı mütəxəssis kimi yetişməsində bu qayğının böyük rolu olacaqdır.

***Həsən Mansurov,***
***BDU-nun hüquqşünaslıq***
***fakültəsinin I kurs tələbəsi***

## Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının kollektivinə



Mən, Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsindəki 279 saylı orta məktəbin məzunuyam. 658 balla ADİU-nin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olmuşam. İmtahanda belə yüksək nəticə əldə etməyimə orta məktəb müəllimlərimin zəhməti, özümün çalışqanlığım və imtahanların obyektiv keçirilməsi səbəb olub.

Onu da deyim ki, mənim taleyimə respublikamızın son illərdə yaşadığı ağır və gərgin tarixi hadisələrlə bağlı bir neçə orta məktəbdə, daha dəqiq desəm 4 müxtəlif məktəbdə təhsil almaq nəsib olub. Çünki yaşadığımız kənd Ağdam rayonunun işğal altında olan ərazisindədir. Oxuduğum məktəbləri dəfələrlə dəyişmək məcburiyyətində qalmağım xeyli çətinliklər yaratsa da, mən hər zaman oxumaq, elmlərin sirlərinə yiyələnmək, vətənimin və xalqımın layiqli övladı olmaq arzusu ilə yaşamışam.

Mən belə düşünürəm ki, Azərbaycan iqtisadiyyatının tərəqqisi həm də beynəlxalq iqtisadi əlaqələrimizin inkişafı ilə bağlıdır. Odur ki, mən ADİU-nin beynəlxalq iqtisadi münasibətlər ixtisasını seçmişəm. Çalışacağam ki, mən bu ixtisasa dərindən yiyələnim, təhsilimi başa vurub respublikamızın iqtisadi tərəqqisinə öz töhfəmi verim.

Qəbul imtahanlarında yaratdığınız obyektivlik şəraitinə görə TQDK-nın sədri M.Abbaszadə başda olmaqla Sizin hamınıza minnətdarlığımı bildirirəm.

***Yaşar Hümmətov,***
***ADİU-nin beynəlxalq iqtisadi münasibətlər***
***fakültəsinin I kurs tələbəsi***

## Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri M.Abbaszadəyə



Qızım Məmmədova Mətanət bu il ali məktəbə qəbul olub. Onun tələbə olduğunu eşidəndə keçirdiyim sevinc hisslərini indi də ifadə etməyə söz tapa bilmirəm. Artıq bütün həyəcanlar, sıxıntılar arxada qalıb. Biz qızımızın real biliyi ilə ali məktəbə qəbul olduğunu bilirik. O, öz biliyinə və TQDK-nın obyektivliyinə arxalanaraq imtahanlarda yaxşı nəticə əldə edib, Bakı Slavyan Universitetinin rus dili və ədəbiyyatı fakültəsinə qəbul olub.

Sizə, həmçinin qızımın imtahanlara hazırlaşmağına kömək edən bütün müəllimlərə öz səmimi minnətdarlığımı bildirirəm.

Sizə çətin və məsuliyyətli işinizdə yeni uğurlar arzulayıram.

***Hörmətlə,***
***Sədrəddin Məmmədov,***
***20 avqust 2002-ci il.***

# TƏHSİLİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ BEYNƏLXALQ ASSOSASİYANIN KONFRANSI



Bu il sentyabrın ilk həftəsində Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosasiyanın (TQBA) Honkonq şəhərində növbəti ümumdünya konfransı keçirilmişdir. Ölkəmizi bu nüfuzlu beynəlxalq tədbirdə 2001-ci ildən TQBA-nın üzvü olan TQDK-nın sədri Məleykə Abbaszadə təmsil etmişdir. Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosasiyanın fəaliyyəti və onun 28-ci konfransının işi barədə ətraflı məlumat almaq üçün biz TQDK-nın sədri M.Abbaszadəyə müraciət etdik.

**- Əvvəlcə oxucularımıza Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosasiyanın nə vaxt və hansı zərurətdən yaranması barədə məlumat verməyinizi xahiş edirik.**

- Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosasiyanın təməli 1974-cü ildə ABŞ-ın Nyu-Cersi ştatının Prinstaun şəhərində keçirilmiş beynəlxalq konfransda qoyulub. Burada 18 ölkəni təmsil edən 35 nümayəndə bütün dünyada müvafiq qurumlar arasında qarşılıqlı əlaqə saxlamağa imkan yaradan bir təşkilat - Assosasiya yaratmaq arzularını ifadə etdi və bu arzularını reallaşdırmaq üçün əməli qərar qəbul etdi. Müəyyən edildi ki, bu təşkilat təhsil prosesinin inkişaf etdirilməsi üçün qiymətləndirmə vasitələrinin tətbiqi üzrə birgə layihələr hazırlayıb həyata keçirə bilər.

1975-ci il mayın 27-də Beynəlxalq Təhsil Bürosunun köməkliyi ilə İsveçrənin Cenevrə şəhərində təşkilatlanma tədbiri keçirildi və iştirakçılar Assosasiyanı yaratmaq yönündə daha bir mühüm addım atdılar.

Assosasiyanın təsisçiləri belə bir yekdil qənaətə gəldilər ki, əgər bütün dünyada təhsil inkişaf etdirilərsə, bundan milyonlarla insanlar faydalanarlar. Bunun üçün təhsillə bağlı tədqiqat işlərində və qiymətləndirmədə beynəlxalq əməkdaşlıq zəruridir. Bu, təhsil sistemləri və proseslərinə tə'sir göstərən və xidmət edən şəxslər, qurumlar və müəssisələr arasında daha sıx əlaqələrin yaradılmasına gətirib çıxarar, bunun vasitəsilə də müxtəlif millətlər bir-birilərindən öyrənə və bir-birilərinə kömək edə bilərlər.

1976-cı ildə TQBA Parisdə ali məktəblərə qəbul və təhsillə bağlı bəzi beynəlxalq proqramlara dair özünün ilk konfransını keçirdi.

TQBA-nın ümdə məramı təhsilin keyfiyyətini yaxşılaşdırmaq üçün onun qiymətləndirilməsi vasitələrinin tətbiqində və inkişaf etdirilməsində təhsil qurumlarına kömək etməkdir. TQBA belə hesab edir ki, bu məqsədə beynəlxalq əməkdaşlıq sayəsində daha yaxşı nail olmaq olar. Belə əməkdaşlıq dünyada müvafiq qurumlar arasında daha sıx əlaqələrin inkişafına imkan yaradar, millətlərin mədəni muxtariyyətinə zərər gətirmədən onların biri-birilərindən öyrənmələrinə kömək edər.

**- Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosasiyanın başlıca məqsədləri və fəaliyyət istiqamətləri nələrdən ibarətdir?**

*- Assosasiyanın əsas məqsədləri bunlardır:*

*- Peşəkar bilik və təcrübəni bölüşməklə, konfranslar keçirməklə, habelə təhsilin qiymətləndirilməsi ilə bağlı birgə layihələr hazırlamağa imkan yaradan şəraiti təmin etməklə maraqlı təşkilatlar arasında əlaqələri inkişaf etdirmək;*

*- təhsil sahəsindəki problemlərin həllinə kömək üçün mövcud olan qiymətləndirmə vasitələri ilə bağlı bilik və təcrübəni toplamaq;*

*- digər maraqlı əlaqədar qurumlarla əməkdaşlıq etmək;*

*- bütün dünyada qiymətləndirmə vasitələrinin inkişaf etdirilməsinə və təhsil qurumlarının onlardan səmərəli istifadə etməsinə yönələn digər işlərdə iştirak etmək.*

*TQBA qeyri - hökumət təşkilatı kimi, qiymətləndirmə və dəyərləndirmə məsələlri ilə bağlı YUNESKO-nun tədbirlərində fəal iştirak edir. Assosasiya həmçinin Dünya Bankı ilə birgə layihələr yerinə yetirir.*

*TQBA yarandığı vaxtdan indiyədək müstəqil surətdə də xeyli layihələr həyata keçirib. Buna nümunə olaraq:*

*1990-cı ildə - təhsil sahəsindəki nailiyyətlərin qiymətləndirilməsi;*

*1992-ci ildə ibtidai, əsas və orta təhsil bazalarında şagirdlərin biliklərinin qiymətləndirilməsi sahəsindəki mövcud nəzəriyyə və əməli təcrübənin müqayisəli tədqiqi;*

*1993-cü ildə imtahan sistemlərinin tədris planlarının hazırlanmasına təsirinə dair araşdırma;*

*1994-cü ildə təhsilin inkişafının qiymətləndirilməsində qızların və oğlanların təhsil göstəricilərinin aşkar*

*edilməsi və bununla bağlı beynəlxalq miqyaslı perspektivlərin müəyyənləşdirilməsi;*

*1997-ci ildə YUNESKO-nun xətti ilə - təhsil sistemlərinin nəticələri ilə bağlı informasiya hazırlamaq üçün dövlət imtahanlarının göstəricilərindən istifadənin mümkünlüyü layihəsi;*

*Bilik və bacarıqların inkişaf etdirilməsi üzrə beynəlxalq miqyaslı sınaqların keçirilməsi tədbiri;*

*Qiymətləndirmə ilə bağlı müəllimlərin soraq kitabının hazırlanması və başqa işləri göstərmək olar.*




**- Oxucularımızı iştirakçısı olduğunuz konfransın işi də çox maraqlandırır.**

- Assosasiya hər il öz konfranslarını keçirir və bir qayda olaraq, bunların yeri coğrafi baxımdan dəyişdirilir. İndiyə qədər dunyanın beş qitəsində ayrı-ayrı mövzular üzrə 27 ümumdünya konfransı keçirilib.

Sentyabrın 1-dən 6-dək Honkonq şəhərində keçirilən builki konfransın mövzusu "Təhsildə qiymətləndirmənin dəyişilən tələblərə uyqun qurulması" idi. Konfransda 40 ölkədən gəlmiş 160 dan çox nümayəndə iştirak edirdi. Burada 89 məruzə dinlənildi. Bu məruzələr təhsilin qiymətləndirilməsi ilə bağlı dunyada gedən prosesləri əks etdirirdi. Burada qəbul və buraxılış imtahanları zamanı kompüter texnologiyalarından istifadə (ABŞ, İngiltərə, Şotlandiya, Kanada), bu imtahanların müsbət və mənfi çəhətləri; məktəblilərin biliyinin qiymətləndirməsində test imtahanlarının rolu (İsrail, Honkonq, Avstraliya və b.); muəllimlərin attestasiyası və imtahanların nətiçəsi əsasında məktəblərin özünün qiymətləndirilməsi (Yeni Zelandiya, Birləşmiş Krallıq və s.) və bir çox başqa mövzularda maraqlı məruzələr dinlənildi.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası 2001-ci ildən bu Beynəlxalq Assosasiyanın üzvüdür. Qeyd edim ki, Komissiyanın işi ilə tanışlıqdan sonra o, birbaşa əsas üzvlər sırasına daxil edilib. Bu da Komissiyaya Assosasiyanın bütün işlərində iştirak etməyə, onun rəhbər orqanlarına seçilməyə imkan verir. TQDK builki konfransa rəsmi dəvət almışdı və onun təqdim etdiyi iki məruzə qəbul edilərək konfransın gündəliyinə salınmışdı.

Konfransın açılışı günü plenar iclasda etdiyim “Təhsilin qiymətləndirilməsində informasiya texnologiyalarının rolu” mövzusundakı məruzədə mən iştirakçılara Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının ötən on il ərzində gördüyü işlər, burada yaradılmış açığ sosio-texniki sistemin mahiyyəti, Komissiyanın perspektiv planları haqqında ətraflı məlumat verdim. Eyni zamanda dinləyicilərə müstəqil respublikamızın tarixi, mədəniyyəti, dili, təhsil sistemi haqqında izahat verdim, bunları əks etdirən video kadrlar nümayiş etdirildi. Təhsilimizin vəziyyəti və tələbə qəbulu ilə bağlı təqdim edilən statistik məlumatlar konfrans iştirakçılarında böyük maraq doğurdu. Konfrans iştirakçılarından Mançester Universitetinin professoru Tom Kristi, İngiltərənin Durxam Universitetinin professoru Djeyms Ridqvey, Səudiyyə Ərəbistanının Ümm Əl-Qura Universitetinin professoru Əli Əsseri, Ümumdünya Qiymətləndirmə Assosasiyasının vitse-prezidenti, Braziliyanın Biliyin Qiymətləndirmə Təşkilatının rəhbəri Vera Tavares və başqaları fasilə zamanı bizə yaxınlaşıb bəhs etdiyimiz məsələlərlə bağlı çoxlu suallar verdilər. Təbii ki, biz də verilən sualları diqqətlə dinləyib onları ətraflı cavablandırmağa çalışdıq.

Konfransda TQDK-nın test metodikası şöbəsinin müdiri R.Hüseynov isə "Qəbul imtahanlarının nətiçələrinin təhlili əsasında şagird və məktəblərə verilən lazımi metodik materiallar" mövzusunda məruzə ilə çıxış etdi. Bu çıxış da marağa səbəb oldu.

Konfrans iştirakçıları xüsusi qeyd etdilər ki, Azərbayçan keçmiş sovet respublikaları arasında yeganə ölkədir ki, indiyə qədər bu beynəlxalq təşkilatın işində fəal iştirak edir.

Konfransın gedişi günlərində biz bir neçə işgüzar görüş də keçirdik. Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Konfransın ev sahibi olan Honkonqun müvafiq təşkilatının prezidenti, Si Si Çoyla, Amerika Test Xidmətinin Avropa ölkələri üzrə təşkilatının direktoru Steven Bakkerlə, Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosasiyanın prezidenti Nigeriyalı professor Olu Aina və başqaları ilə keçirilən görüşlərdəki fikir mübadiləsi çox faydalı oldu. Bu görüşlər zamanı onlara "Azərbaycan yeni minillikdə. Dövlət kitabı"nı, ölkəmizin simvolik miniatür bayrağını və milli musiqimizdən parçaları səsləndirən diskləri və başqa suvenirləri hədiyyə etdik. Biz TQDK-nın postsovet məkanında qəbul imtahanlarını mərkəzləşdirilmiş qaydada, test üsulu ilə keçirən və on illik zəngin təcrübəyə malik yeganə bir təşkilat olduğumuzu qeyd edib, Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosasiyanın növbəti konfranslarından birinin respublikamızın paytaxtında keçirilməsini təklif etdik. Təklif professor Olu Aina və Assosasiyanın işçi qrupu tərəfindən böyük razılıq hissi ilə qəbul olundu.

Konfransın sonuncu günü “Məktəb - baza - təhsilin qiymətləndirilməsi” mövzusunda dəyirmi masa olduqca maraqlı keçdi.

Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosasiyanın novbəti konfransı gələn il İngiltərənin Mançester şəhərində keçiriləcək.

**Müsahibəni apardı:**
**Rabil Novruzov**

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev, V.M.Bağırov, F.Ş.Bədəlbəyli, A.B.Cahangirov, A.Q.Əbiyev, M.N.Ələsgərov, Ə.T.Əmiraslanov, E.N.Əmirbəyov, N.M.Xudiyev, A.M.Məhərrəmov, M.C.Mərdanov.

**REDAKSİYA HEYƏTİ**
A.H.Bağırov (baş redaktor), R.H.Novruzov (baş redaktor müavini), H.H.Kazımov (məsul katib), F.A.Atamov, İ.A.Babayev, T.A.Bədəlov, R.H.Hüseynov, Ç.C.Xəlilov, Ə.Q.Quliyev, M.N.Qurbanov, V.R.Misirov, M.Ə.Nuriyev, Ç.İ.Rüstəmov.

---

**Üslubçu:** prof. İ.O.Məmmədov.

**Üz qabığının tərtibatı:**
T.Məlik

**Kompüter və dizayn:**
O.Y.Şelaginov, M.Ə.Bədəlov, İ.İ.Cəfərov.

---

**Redaksiyanın ünvanı:**
370078, Bakı şəhəri, akademik Həsən Əliyev küçəsi, 17.

**Telefon:**
40-30-09.

**E-mail:**
abit@tqdk.gov.az

---

Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. (Lisenziya B 171, 18 fevral 1999)

© TQDK - «Abituriyent»

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması QADAĞANDIR!

Jurnal Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi materialları əsasında hazırlanmışdır.

Çapa imzalanmışdır 09.10.2002.
Tiraj 300.

Jurnal "ÇAŞIOĞLU" mətbəəsində çap edilmişdir.

Reklam materiallarının məzmununa görə redaksiya cavabdeh deyil.



# Mündəricat

AZƏRBAYCAN PREZİDENTİNİN ALİ MƏKTƏBLƏRƏ ƏN YÜKSƏK BALLA DAXİL OLMUŞ TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ

1 PREZİDENT HEYDƏR ƏLİYEVİN GİRİŞ NİTQİ

2 TƏLƏBƏ QƏBULU ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ SƏDRİ MƏLEYKƏ ABBASZADƏNİN ÇIXIŞI

5 AZƏRBAYCAN PREZİDENTİNİN TƏLƏBƏLƏRƏ PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA SƏRƏNCAMI: PREZİDENTİN İCRA APARATI HUMANİTAR SİYASƏT ŞÖBƏSİNİN MÜDİRİ FATMA ABDULLAZADƏ SƏRƏNCAMI ELAN ETDİ

6 PREZİDENT TƏQAÜDÜNƏ LAYİQ GÖRÜLMÜŞ TƏLƏBƏLƏRƏ "AZƏRBAYCAN YENİ MİNİLLİKDƏ. DÖVLƏT KİTABI" VƏ GÜL DƏSTƏLƏRİ TƏQDİM OLUNDU

16 AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏRİMİZ
19 I QRUP
23 II QRUP
40 III QRUP
44 IV QRUP

51 BİLİK YARIŞININ ÖNCÜLLƏRİ İLƏ SORĞUDAN NÜMUNƏLƏR

57 MƏKTUBLARDAN SƏTİRLƏR

59 TƏHSİLİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ BEYNƏLXALQ ASSOSASİYANIN KONFRANSI

## DİQQƏT! DİQQƏT!

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası abituriyentlərin nəzərinə çatdırır ki, **TÜRK DİLİ** ümumtəhsil məktəblərində xarici dil kimi tədris olunmadığından, gələn ilin qəbul imtahanlarında xarici dil fənləri sırasına salınmayacaqdır.